... Allah, sizə asanlıq diləyər, çətinlik diləməz ...
(Bəqərə surəsi, 185)

# ASANLIQ DİNİ İSLAM

HARUN YƏHYA (ADNAN OKTAR)

# MÜNDƏRİCAT

GİRİŞ ........ 6
QURAN ASANLIĞA APARAN RƏHBƏRDİR ........ 8
ALLAH ASAN OLANI ƏMR ETMİŞDİR ........ 11
ALLAHIN YARATDIĞI İMTAHAN ÇOX ASANDIR ........ 19
QURAN ƏXLAQINI YAŞAMAĞIN ASANLIĞI ........ 30
ŞEYTANIN ZƏİF HİYLƏSİ ........ 44
NƏTİCƏ ........ 46
TƏKAMÜLÜN YANLIŞLIĞI ........ 47

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsü adını istifadə yazar Adnan Oktar, 1956-ci ildə Ankarada anadan olub. İlk, orta və lisey təhsilini Ankarada tamamladı. Daha sonra İstanbul Memar Sinan Universiteti Gözəl Sənətlər Fakültəsində və İstanbul Universiteti fəlsəfə fakültəsində təhsil almışdır. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır. Harun Yəhyanın əsərləri təxminən 30.000 şəkilin yer aldığı ümumi 45.000 səhifəlik bir külliyatdır və bu külliyyat 63 fərqli dilə tərcümə edilmişdir.

Yazarın təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə edən iki peyğəmbərin xatirələrinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından yaradılmışdır. Yazar tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün istifadə olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür, Quran-i Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimiz (s.ə.v)-in də hatem-ül ənbiya olmasının rəmzidir. Yazar da, nəşr etdiyi bütün işlərində, Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını tək-tək çürütməyi və dinə qarşı yönəldilən etirazları tam olaraq susduracaq "son söz" ü söyləməyi hədəfləyir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulullahın möhürü, bu son sözü söyləmək niyyətinin bir duası olaraq istifadə edilmişdir.

Yazarın bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqlərini gözlər önünə gətirməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın daha bir çox ölkəsində maraqla oxunur. İngiliscə, fransızca, almanca, italyanca, ispanca, portuqalca, urduca, ərəbcə, albanca, rusca, boşnakca, uyğurca, indoneziyaca, malayca, benqalca, serbcə, bolqarca, çincə, suahili (Tanzaniyada istifadə edilir), Hausa (Afrikada geniş şəkildə istifadə edilir), dhivelhi (Mauritusda istifadə edilir), danimarkaca və isveçcə kimi bir çox dilə tərcümə edilən əsərlər, xaricdə geniş bir oxucu kütləsi tərəfindən təqib edilir.

Dünyanın dörd bir tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, analiz edən hər adam, bu əsərlərdəki hikmətli, köklü, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz olunmayan, çürüdülməzlik kimi xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların, artıq materialist fəlsəfəni,

ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də ancaq emisional bir inadla müdafiə edəcəklər, çünki fikri dayaqları çürümüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya Külliyyatı qarşısında fikri cəhətdən məğlub olmuşlar.

Şübhəsiz ki, bu xüsusiyyətlər, Quranın hikmət və izahat təsirindən qaynaqlanır. Yazarın özü bu əsərlərdən ötəri bir təkəbbür göstərmir, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Həmçinin, bu əsərlərin çapında və nəşr olunmasında hər hansı bir maddi qazanc hədəflənmir.

Bu həqiqətlər nəzərə alındığında, insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmaq əvəzinə, insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri dağıtmada, imanı qurtarmada güclü və kəskin bir təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə, əmək və zaman itkisinə səbəb olacaq. İmanı qurtarma məqsədindən daha çox, müəllifin ədəbi gücünü vurğulamağa istiqamətli əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi çürütmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə görüldüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilinməlidir ki, dünya üzərindəki zülm və qarışıqlıqların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmanın yolu isə, dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının, insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın günbəgün daha çox içinə çəkilmək istəndiyi zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin olduqca sürətli və təsirli bir şəkildə edilməli olduğu açıqdır. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə qabaqcıl rolu boynuna götürmüş olan Harun Yəhya külliyyatı, Allahın izniylə, XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa bir vəsilə olacaq.

# OXUCUYA

• Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin çöküşünə xüsusi bir yer ayrılmasının səbəbi, bu nəzəriyyənin hər cür din əleyhdarı fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və bu səbəbdən Allahın varlığını inkar edən darvinizm, 150 ildir bir çox insanın imanını itirməsinə ya da şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin bir yalan olduğunu gözlər önünə sərmək çox əhəmiyyətli bir imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlarımıza çatdırılması isə zəruridir. Bəzi oxucularımız bəlkə tək bir kitabımızı oxumaq imkanı əldə edə bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa bir bölüm ayrılması uyğun görülmüşdür.

• İfadə edilməli olan bir başqa xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Yazarın bütün kitablarında imani mövzular Quran ayələri istiqamətində izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilir. Allahın ayələri ilə əlaqədar bütün məsələlər, oxuyanın ağlında heç bir şübhə və ya sual işarəsi buraxmayacaq şəkildə açıqlanır.

• Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların kiçikdən böyüyə hər kəs tərəfindən rahat şəkildə başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat sayəsində, kitablar "bir nəfəsdə oxunan kitablar" deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmə mövzusunda qəti bir rəftar sərgiləyən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar edə bilmirlər.

• Bu kitab və yazarın digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna bilinəcəyi kimi, qarşılıqlı bir söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmələri baxımından faydalı olacaq.

• Bununla yanaşı, yalnız Allah rizası üçün yazılmış olan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük bir xidmət olacaq. Çünki yazarın bütün kitablarında isbat və razı edici yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

• Kitabların arxasına yazarın digər əsərlərinin təqdimatlarının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Bunun sayəsində kitabı əlinə alan adam, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha çox əsər olduğunu görəcək. İmani və siyasi mövzularda faydalanacağı zəngin bir qaynaq təcrübəsinin olduğuna şahid olacaq.

• Bu əsərlərdə, digər bəzi əsərlərdə görülən, yazıçının şəxsi qənaətlərinə, şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəbə və

hörmətə diqqət etməyən tərzlərə, burxuntu verən ümidsiz, şübhəçi və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# GİRİŞ

Allahın insanlar üçün yaradılışlarına ən uyğun olan seçdiyi din, İslam dinidir. Allah Quran əxlaqını insanların yaşaya bilməsi üçün çox asan etmişdir. Din əxlaqı, insanların üzərindəki bütün külfəti, məhdudlaşdırıcı və həddi aşan, insanlara çətinlik yaradan ağırlıqları ortadan götürər. İnsanın yalnız sonsuz mərhəmətli, şəfqətli, bağışlayıcı, saleh qulları üçün hər şeyi xeyirlə yaradan, bütün gücün sahibi olan Allahın özü üçün təyin etdiyi qədərə təslim olmasını, hər şeydə yalnız Onun razılığını axtararaq Ona yönəlməsini bildirir.

Kainatdakı hər varlığın və reallaşan hər hadisənin sahibi olan Allaha inanıb təslim olmaq və Onu dost seçmək, bir insanın həyatındakı bütün qorxuların, narahatlıqların, sıxıntıların və çətinliklərin sonu deməkdir. Quran əxlaqını yaşayan bir insan üçün dinin gətirdiyi ən əsas asanlıq və gözəlliklərdən biri budur. Bundan başqa Allah, bütün əmr və hökmlərini insanların fitrətlərinə ən uyğun şəkildə bildirmişdir və heç birində bir çətinlik yoxdur.

Allah, Quranda din əxlaqının asan olduğunu, dininə tabe olanların işlərini asanlaşdıracağını belə bildirər:

**"Və səni asan olan üçün müvəffəqiyyətli edəcəyik." (Əla surəsi, 8)**

**"... O, sizləri seçdi və din mövzusunda sizə bir çətinlik yükləməmişdir, atanız İbrahimin dini(ndə olduğu kimi)..." (Həcc surəsi, 78)**

Peyğəmbərimiz (s.ə.v) də, bu ayələrə görə "Din asanlıqdır." (Buxari, İman: *29; Nəsəni, İman: 28;* Müsnəd, 5:69) deyə buyuraraq, insanları din əxlaqını yaşamağa dəvət etmişdir.

İnsanların dində çətinlik kimi gördükləri tətbiq və ya inanclar isə, dinə sonradan müşriklər və ya insanları dindən uzaqlaşdırmaq istəyən inkarçılar tərəfindən əlavə edilmiş və haqq dinin bir parçasıymış kimi insanlara göstərilmişdir. Bəzi kəslər də, özlərini daha təqvalı göstərmək üçün çətin olanı etməyin daha çox savab qazanılacağını düşünərək, nümayişə əsaslanan din anlayışını mənimsəmişlər. Halbuki, Peyğəmbərimiz (s.ə.v) yanındakı müsəlmanlara hər zaman dini "asanlaşdırmağı" əmr etmişdir. O halda saleh müsəlmanlar bu əmrə itaət etməli və insanlara asan olanı çətin göstərmənin günahını yükləməməlidirlər. Peyğəmbər (s.ə.v)-in bu mövzuyla əlaqədar bir hədisi belədir:

*"Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin. Bir-birinizlə yaxşı dolanın, ixtilafa düşməyin." (Hz. Səid ibni Əbu Bərdə r.ə.) (Ramuz əl-hədis 2-ci cild, s. 510)*

Bu kitabda da, Peyğəmbərimiz (s.ə.v)-in bu tövsiyəsinə uyğun olaraq, Allahın dininin yaşanmasının son dərəcə asan olduğu xatırladılır. Həmçinin. İslam dininin insanın yaradılışına, rahatlığına, xoşbəxtliyinə ən uyğun həyat forması olduğu və

Quran əxlaqına görə yaşanan həyatın bir insan üçün ola biləcək ən gözəl həyat olduğu izah edilir.

# QURAN ASANLIĞA APARAN RƏHBƏRDİR

**Biz Quranı sənə ona görə nazil etmədik ki, əziyyətə düşəsən. Onu Allahdan qorxanlar üçün ancaq nəsihət kimi göndərdik. (Taha surəsi, 2-3)**

Allah tarix boyunca bütün insanlığa doğrunu tapmaları, dəqiq olan məlumata çata bilmələri və din haqqında məlumat əldə edə bilmələri üçün müqəddəs kitablar, bu kitabları insanlara çatdıran və açıqlayan peyğəmbərlər göndərmişdir. Allahın insanlara yol göstərən endirdiyi son kitab isə Qurandır. Bir ayədə Quranın yol göstərici xüsusiyyəti üçün belə bildirilir:

**Daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir (Ali İmran surəsi, 4)**

Allahın Qurandan əvvəl endirdiyi kitablar müşriklər və dinə düşmən olan insanlar tərəfindən təhrif edilmişdir. Bu kitablara bir çox xurafat və batil inanc əlavə olunaraq mənalarından uzaqlaşdırılmışdır. Ancaq Allah son müqəddəs kitab olan Quranın təhrif olunmasının mümkün olmadığına dair ayələrdə qəti bir hökm vermiş və qiyamət gününə qədər qorunacağı bildirmişdir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

**Nə önündən, nə də arxasından batil ona girişə bilməz. O, Müdrik, Tərifəlayiq Allah tərəfindən nazil edilmişdir. (Fussilət surəsi, 42)**

Quranın qiyamətə qədər etibarlı olduğunu və qorunacağını bilən möminlər bunun dinclik və rahatlığını yaşayarlar. Quran insanın hər hökmündən, hər əmrindən qətidir. Ürəklərdə və vicdanlarda heç bir şəkk və şübhə meydana gəlmədən tabe olunacaq bir kitabdır. İnsanlar üçün bu cür "etibarlı" bir yol göstəricisinin olması çox böyük nemət və Allah qatından verilmiş bir rəhmətdir. Allah Quranın möminlər üçün əhəmiyyətini bir ayəsində belə xəbər verir:

**... Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

Quranı bilən və özünə rəhbər edən insan yaradılış məqsədini, Allahın məmnuniyyətini, rəhmətini, cənnətini qazanmanın yolunu, cənnət və cəhənnəmdə necə bir həyat olacağını,

Allahın yaratmasındakı sirləri, ən gözəl əxlaqı, bir çox məlumatı doğru və əskiksiz şəkildə öyrənər.

Bir insanın din haqqında soruşa biləcəyi və başqa insanlar tərəfindən öyrənə biləcəyi hər cür suallara cavab Qurandadır.

Quran ayələri ilə həm din, həm də insanların ixtilafa düşəcəkləri haqda məlumatlar verilmişdir. Allah Quranda insanların ixtilafa düşdüklərinin açıqlanmasını belə bildirmişdir:

**Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, ona cavab olaraq Biz sənə haqqı və ən yaxşı yozumu verməyək. (Furqan surəsi, 33)**

Ayədə görüldüyü kimi Quran Allaha iman edən, saleh qullar üçün böyük bir rəhmət və hər mövzuda yol göstəricidir. Allah Quran yoluyla bizə bilmədiyimiz yaradılışın sirri olan mövzuları bildirər və bütün insanları bu məlumatlarla xəbərdar edər. Məsələn, Quranda şeytanın varlığı, xüsusiyyətləri, məqsədi, insanlara hansı istiqamətlərdən yaxınlaşa biləcəyi, nə kimi üsullar istifadə edə biləcəyi və hiyləgər xarakteri haqqında məlumat verilir. Bununla yanaşı bir insanın şeytanın təsirindən necə çıxa biləcəyinin yolu göstərilir. Quranda şeytan haqqında izah edilənlərin möminlər üçün çox böyük əhəmiyyəti var. Çünki şeytan kimi hiyləgər və gizli yollarla yaxınlaşan bir düşmənə qarşı insanlar daima ayıq olmalıdırlar.

Quran son dərəcə aydın olan və hər kəsə xitab edən bir kitabdır. Buna görə insanların axirət günündə Allaha dünyada etdikləri işlər üçün hesab verərkən “Mən bundan xəbərsizdim, mənə bildirilməmişdi” deyə bəhanə göstərə biləcəkləri heç bir mövzu yoxdur. Allah insanları Quran vasitəsi ilə xəbərdar etmiş və həyatlarıyla əlaqədar ən əhəmiyyətli mövzularda məlumatlandırmışdır.

Allah Quran ayələrində insanlara daha asan qavrayıb anlaya bilmələri üçün müxtəlif şəkillərdə açıqlamalar göndərmişdir. Allah Quranın bu yolunu ayələrində belə bildirir:

**Həqiqətən, Biz onlara elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik (Əraf surəsi, 52)**

**... Gör ayələrimizi necə izah edirik ki, bəlkə başa düşsünlər. (Ənam surəsi, 65)**

Allahın bu hökmlərinə baxmayaraq insanların düşdükləri səhvlərdən biri isə Quranın hər insan tərəfindən aydın anlaşılan olmadığını fikirləşmələridir. Çox insan Quranın oxunması, başa düşülməsi və yaşana bilməsi üçün uzun illər sürən bir təhsilə ehtiyac olduğunu zənn edir. Bu cür düşünən insanların böyük bir qismi isə əslində bir dəfə belə Quranı oxumamışdır. Oxusa belə anlamağa çalışmamışdır, ötəri oxumuşdur. Halbuki Quran Allahın ayələrində bildirdiyi kimi açıq-aşkardır. Səmimi olaraq Quranı oxuyan hər insan onu asanlıqla anlaya bilər

Quranın dilinin son dərəcə anlaşılan olması insanlar üçün çox böyük bir nemətdir. Allah insanların Quranı rahatlıqla oxuyub anlamaları üçün asanlaşdırdığını bir ayədə belə bildirər:

**Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən. (Məryəm surəsi, 97)**

Allah rəhmətini və mərhəmətini, insanların anlaması üçün dinini bu qədər asanlaşdırmışkən, insana düşən yalnız Allahın bildirdiklərini düşünmək və onları tətbiq etməkdir. Bir çox insan bu qədər asan bir yolu qoyub, çətin olanı seçməklə Qurandan uzaq yaşayırlar. Necə ki, bu ayədə bildirildiyi kimi Peyğəmbərimiz (s.ə.v) də bu mövzuda Allaha belə səslənmişdir:

**Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!" – dedi. (Furqan surəsi, 30)**

Ürəkləri razı qalmış, Allaha bağlı möminlər isə Quranın hökm və hikmət sahibi olan Rəbbimizdən göndərilmiş bir hidayət rəhbəri olduğunu bilərlər. Allah Quranın **"möminlər üçün şəfa və rəhmət" (İsra surəsi, 82)** olduğunu da bildirmişdir. Quran ayələri ilə insanın ağlında meydana gələ biləcək suallar və şübhələr tamamilə ortadan qalxar, insan özü üçün ən uyğun olan əxlaqı və həyat formasını öyrənmiş olar.

Bu çox əhəmiyyətli bir nöqtədir: Allah insanları İslam qayda-qanunlarına uyğun olaraq yaşadıqları üçün xoşbəxt, dinc, sağlam şəkildə yaratmışdır. Bunları əldə etmək üçün Qurandan başqa yol axtaranlar minlərlə, milyardlarla il keçsə də heç bir zaman axtardıqlarını tapa bilməyəcəklər. İnsanın dünyada və axirətdə rahatlaması üçün tək yol Allahın insanlar üçün endirdiyi Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə tabe olmasıdır. Allahın ayəsində bildirilir. Quran insanları qaranlıqlardan işığa çıxaran yeganə haqq Kitabdır:

**Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

Allah kitabının nuruna uyanlar, yol göstərməsinə tabe olanlar, – Allahın diləməsi ilə – dünyada və axirətdə daim asanlıqlarla qarşılaşacaq, gözəl bir həyat yaşayacaqlar.

# ALLAH ASAN OLANI ƏMR ETMİŞDİR

İnsanların bir çoxunun din haqqındakı məlumatları, uşaq vaxtlarından etibarən ətraflarından əldə etdikləri məlumatlara əsaslanır. Dini, əsl qaynağından, yəni Qurandan öyrənmədikləri üçün də, din adı altında bir çox xurafata, əsassız inanca qapılarlar. Bu inancların ən təhlükəlilərindən biri isə, dini yaşamağın çətin olduğu şəklindəki həqiqətə uyğun olmayan inancdır.

Tarix boyunca, dini özündən kənarlaşdırmağı məqsəd qoyan və dinin yaşanmasına maneə törətmək üçün müxtəlif üsullar sınayan kəslər, dinə bir çox çətinləşdirici əməl və xurafat qatmağa çalışmışlar. Öz törətdikləri əməllər üzündən bilərək və ya bilməyərək insanların dindən uzaqlaşmalarına səbəb olmuşlar. Halbuki, Allahın Quranda bildirdikləri və Peyğəmbərimizin sünnəsi bizə dinin yaşanmasının səmimi insanlar üçün son dərəcə asan olduğunu öyrədir.

Əvvəlcə bunu ifadə etmək lazımdır ki; Allah kainatdakı hər şey kimi insanı da yoxdan var etmişdir. İnsanı ən yaxşı tanıyan, ona şah damarından daha yaxın olan Allah, dini də insanın yaradılışına uyğun yaratmışdır. Allah bir ayəsində insanın din ilə fitrətinə (yaradılışına) ən uyğun olana çağırıldığını belə xəbər verir:

**Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz. (Rum surəsi, 30)**

Rəbbimizin şəfqət və mərhəməti olaraq dövrlər boyu göndərilmiş bütün haqq dinlər hər zaman çox asan tətbiq oluna bilən hökmlərə sahib olmuşlar. Çünki Allah insanlar üçün daim asanlıq diləmişdir və **"... Allah, sizə asanlıq diləyər, çətinlik diləməz..." (Bəqərə surəsi, 185)** ayəsi ilə bu həqiqəti xəbər vermişdir. Allahın sərhədlərinə uyan bir insan eyni zamanda, yaradılışına ən uyğun olan son dərəcə gözəl bir həyatı yaşayan insandır.

Bu həqiqəti bilməyən bəzi insanlar isə, din əxlaqının sərhədləri qalxdığı təqdirdə daha rahat yaşayacaqlarını; məsələn əxlaqi dəyərlərə əhəmiyyət vermədikləri zaman azad olacaqlarını düşünərlər. Ya da dinin həyatlarını çətinləşdirəcək bəzi məhdudlaşdırmalar gətirəcəyini zənn edərlər. Halbuki bütün bunlar insanların qapıldıqları çox böyük yanılmalar və şeytanın yalanlarıdır. Çünki Allahın dinini yaşamaq, insanlara əmr etdiklərini yerinə yetirmək son dərəcə asandır. Əsil çətin olan, Allahın bildirdiyi sərhədləri tanımayan insanlardan ibarət olan bir cəmiyyətdə yaşamaqdır. Belə bir həyatın sonu son dərəcə pis nəticələrlə bitir.

Əvvəlcə din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə və ya dinsiz insanların həyatlarında daim xaos, qarışıqlıq, narahatlıq, qorxu, bədbəxtlik və stress vardır.

Allahdan qorxmayan bir insan hər cür əxlaqsızlığı edər, heç bir mövzuda sərhəd tanımaz və degenerasiyalı bir həyat sürər. Belə bir həyatda insanlar bir-birlərinə qarşı fədakarlıq göstərməz, sevgi, hörmət bilməz, maddi və mənəvi dəstək verməzlər. Buna görə də, belə bir həyat heç bir zaman, heç bir insana xoşbəxtlik gətirməz. Din əxlaqının sərhədləri qalxdığı zaman insanın hüzur tapacağı mühitin tam tərsi meydana gəlir və şeytanın istədiyi kimi cəhənnəmə bənzər bir mühit meydana gələr.

Məsələn, indiki vaxtda tez-tez nümunələrinə rast gəldiyimiz hadisələrdən narkotikanın istifadəsi və ticarətinin yayılması, fahişəliyin, rüşvətin, saxtakarlığın qarşısı alınmaz bir hal alması kimi vəziyyətlər bütünlüklə dindən, mənəvi hər cür dəyərdən və gözəllikdən uzaqlaşmasıyla əlaqədardır. Belə mühitlərdə insanlar özlərinə görə azad və dilədikləri kimi davranışlara sahib olduqlarını zənn edərlər. Halbuki, bu sərhəd tanımaz həyatlarının özlərinə gətirdiyi maddi və mənəvi dağılma, azadlıq zənn etdikləri hisslərdən daha çox böyükdür. Düşünün ki, fahişəlikdən, narkotikadan və ya spirtdən sağlamlığı pozulmuş, bədəni yaşına görə çox daha sürətlə yaşlanmış, saçları, dərisi parlaqlığını və canlılığını itirmiş, əldən düşmüş, səfil bir həyat sürən insanların qazancı nə ola bilər? Həqiqətən də, sərhəd tanımazlıq, əxlaqı heçə saymaq, məqsədi olmayan və sonunun yoxluq olduğu sayılan bir həyatı davam etdirmək, istisnasız hər insanda fiziki və ruhi olaraq çox böyük təxribatlar meydana gətirər. Üstəlik, bu nəticələr hər kəsin görə biləcəyi, əsla inkar edə bilməyəcəyi qədər açıq və qətidir.

Burada verilən nümunələrin çox adi nümunələr olduğunu düşünənlər ola bilər. Ancaq bu bir həqiqətdir ki, insan din əxlaqından nə qədər uzaq yaşasa, Allahın sərhədlərini nə qədər tanımazsa, o qədər bədbəxt və çətin bir həyat yaşayar. Bir insanın burada verilən nümunələrdəki qədər adi bir həyat yaşamış olması isə, onun asan və xoşbəxt bir həyatı olduğu mənasını verməz. Bəlkə də, yuxarıda bəhs etdiyimiz insanlara nisbətən bir az daha rahat bir həyat yaşayar. Amma həqiqi xoşbəxtliyi və hüzuru heç vaxt tapa bilməz. Üstəlik, nəticə olaraq da bu insan, Allahın əmrlərindən uzaqlaşdığı üçün böyük bir peşmanlıq duyacağı, çətinliklərin və ağrıların ən böyüklərini yaşayacağı axirət həyatı ilə qarşılaşarsa.

Allahdan qorxan və din əxlaqını əksiksiz olaraq yerinə yetirən insanlar isə, həm dünyada, həm də axirətdə böyük qazanca malikdirlər. Hər şeydən əvvəl, Allaha itaət etməyin mənəvi həzzini və vicdan rahatlığını yaşayarlar. Onlar üçün daim bir müjdə və gözəllik vardır. Allah, razılığına uyanları və sərhədlərini qoruyanları bir ayəsində belə müjdələyir:

**Tövbə edənlər, ibadət edənlər, həmd edənlər, səyahət edənlər, rüku edənlər, səcdə edənlər, yaxşılığı əmr edənlər, pislikdən çəkindirənlər və Allahın sərhədlərini qoruyanlar; sən möminləri müjdələ. (Tövbə surəsi, 112)**

Vicdanına tərs düşərək, Allahın sərhədlərini qorumaq mövzusunda zəif davrananlar və ya imanı çirkin görərək, imansızlığı gözəl görənlər isə, dünyada da, axirətdə də çətinliklərlə qarşılaşacaqlar. Allah bir ayəsində belə bildirir:

**... Bunlar Allahın sərhədləridir. Kim Allahın sərhədlərini tapdalasa, həqiqətən o, öz nəfsinə zülm etmiş olar... (Talaq surəsi, 1)**

Din əxlaqını yaşamağın çətin olduğunu zənn edən insanlarda, yuxarıda danışdığımız kimi dini yaşamağı çətin göstərən insanların vəziyyəti vardır. Dini qavraya bilməyən bəzi kəslər din mövzusunda ifrata yol verirlər. Necə ki, bəzi insanlar guya "azadlıq" adı altında Allahın sərhədlərini tanımadıqları kimi, başqaları da təqva adı altında Allahın qoyduğu sərhədləri dəyişdirmə, çətinləşdirmə cürətini göstərərlər. Bu, əslində şeytanın insanlara bir tələsidir. Allahın haram etmədiyini, haram kimi göstərib, daha çox qadağan meydana gətirməyi bu insanlar bir üstünlük zənn edərlər. Hətta, öz qoyduqları bu qaydalara da gərəyi kimi riayət etməz və bir də bunun vicdan çöküntüsünü yaşayarlar. Allah, bir ayəsində, hz. İsadan sonra İsaviliyi azdıran xristianları bu mövzuya bir nümunə olaraq verir:

**Sonra onların ardınca peyğəmbərlərimizi yolladıq. Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq. Onlar özlərindən rahiblik icad etdilər. Biz onu onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir. (Hədid surəsi, 27)**

Bu səbəbə görə Allah, inananları bu təhlükəyə qarşı xəbərdar etmiş və dində ifrata gedənlərin doğru yoldan azdıqlarını Quranda bildirmişdir:

**De: "Ey kitab əhli! Dininizdə haqsız yerə aşırıya (ifrata) varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!" (Maidə surəsi, 77)**

İnsanın əməl etməsi lazım olan şey, Quranda Allahın insanlara əmr etdiklərini yerinə yetirmək və qadağan etdiklərindən də çəkinməkdir. Allah hər şeyi insanlar üçün asan edərkən dini çətinləşdirməyə çalışanlar, axirətdə bunun məsuliyyətinə yüklənmiş olaraq hesab verərlər. Hər şeydə olduğu kimi bu mövzuda da Peyğəmbərimizin həyatı və tətbiqləri bizə ən gözəl nümunədir. Bir hədisində mübarək Peyğəmbərimiz (s.ə.v.)

Allahın sərhədlərindən ayrılmamağı və eyni zamanda sərhədləri aşmamağı möminlərə xatırlatmış və dinin asan olduğunu belə ifadə etmişdir:

*"Din asandır. Kimsə dinə qarşı şedid (sərt) ola bilməz. Çünki məğlub olar. (Yəni dinin asanlığına uyğunlaşmalıdır )." (Ramuz Əl-Hadis, 1-ci cild, s. 98)*

İnsanların dini, Peyğəmbərimizin yuxarıdakı hədisiylə bildirdiyi şəkildə qiymətləndirmələri lazımdır. Yəni Allahın açıq və aydın izah etdiyi, asanlıqla tətbiq oluna biləcək hökmləri çətin göstərmələri böyük bir səhvdir. Necə ki, Allah Quranda bildirdiyi hökmləri hər cür şərt altında və mühitdə, hər insanın rahatlıqla tətbiq edə biləcəyi şəkildə asanlaşdırmışdır. Sonrakı hissələrdə, Allahın hökmlərində, halal və haramdan, insanlara verilən asanlıqlardan bəzilərinə yer veriləcək.

Allah ruzi olaraq insanlara çoxlu nemətlər vermişdir. Rəngarəng meyvələr, növbənöv yeməklər, tərəvəzlər, ətlər, içkilər ... Hər biri insanların xidmətinə təqdim edilmişdir. Və Allah **"Səndən hansı şeylərin halal edildiyini soruşarlar. De: "Bütün pak nemətlər sizə halal buyurulmuşdur". (Maidə surəsi, 4)** ayəsiylə, insanlara bütün təmiz yeməklərin halal edildiyi bildirmişdir.

Allahın insanlara haram etdiyi yeməklər isə, ölü əti, qan, donuz əti kimi, onsuzda insanlar üçün zərərli və təmiz olmayan yeməklərdir. Allah bir ayəsində belə buyurur:

**De: "Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə günah olaraq kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər Allah ona cəza verməz". Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!. (Ənam surəsi, 145)**

Ayədə haram olan yeməklər üçün keçən "murdar" ifadəsinin çox hikməti vardır. Çünki donuz əti həqiqətən insan bədəninə zərər verəcək xüsusiyyətlərə malikdir.

Məsələn, donuz əti çox yağlıdır, bu yağ qana keçər. Qandakı yağlar damarların sərtləşməsinə, təzyiq yüksəlməsinə və ürək infaktına səbəb olar. Ayrıca donuz yağında "sutoksin" deyilən zəhərli maddənin çölə atılması üçün, linfa vəzilərinin daha çox işləməsi lazımdır. Bu vəziyyət xüsusilə uşaqlarda linfa düyünlərinin iltihablanması və şişməsi şəklində özünü göstərir. Bunlardan başqa donuz ətində bol miqdarda kükürd vardır. Orqanizmə daxil olan çoxlu sayda kükürd; qığırdaq, əzələ və sinirlərə oturaraq oynaqlarda iltihablanma, kirəncləşmə və bel yırtığı kimi müxtəlif xəstəliklərə gətirib çıxarar. Bununla bərabər müxtəlif dəri xəstəlikləri və trişin kimi (trişin yalnız

donuz yoluyla keçər və insanlarda öldürücü bir vəziyyət meydana gətirər) ciddi xəstəliklərə də səbəb olur. (Burada donuz ətinin yalnız bilinən ümumi bir neçə zərərinə diqqət çəkilmişdir.)

Göründüyü kimi, insana zərər verəcək olan yeməklərin haram edilməsi insanlara təqdim edilmiş bir asanlıqdır.

Ancaq burada bir nöqtəyə diqqət çəkməkdə fayda vardır: Əlbəttə, bir şeyin haram və ya halal olması Rəbbimizin əmridir. Və insan yalnız Allahın əmrinə görə hərəkət etməkdən məsuldur. Allah bir yeməyin haram olmasının hikmətlərini diləsə insanlara göstərər, diləməzsə göstərməz. Amma, Allah insanlara bir asanlıq olması, ürəklərinin rahatlıq tapması üçün, yuxarıda verdiyimiz nümunədən aydın olduğu kimi, bu hikmətləri insanlara bir çox səbəb ilə göstərir.

Allah Quranda qadağan edilən yeməklərdən bəhs edərkən insanın başına gələ biləcək hər cür vəziyyətdə necə davranmalı olduğunu da açıqlamışdır. Bu mövzudakı bəzi ayələr belədir:

**Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin. Əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin! Allah sizə ancaq ölü heyvanı, qanı, donuz ətini və Allahın adı çəkilmədən kəsilmiş heyvanı haram buyurmuşdur. Başqa bir şey tapa bilməyib zəruri ehtiyacını ödəyəcək qədər bunlardan yeməyə məcbur olan şəxsə (günah yazılmaz). Çünki Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 114-115)**

Bu ayənin ardından Allahın bağışlayan və əsirgəyən olduğunun xatırladılması da möminlərə rahatlıq verən və onları müjdələyən bir ayədir. Çünki insan zəif yaradılmışdır. İnsan səhv edə bilər, unuda bilər, iradəsiz davrana bilər. Allah insanı, ancaq səmimi olaraq tövbə etdiyində bağışlayıb, əsirgəyər.

5 vaxt namaz qılmaq müsəlmanın bütün həyatı boyunca, Allahın təyin etdiyi vaxtlarda əskiltmədən edəcəyi vacib olan bir ibadətdir. İbadətlərini yerinə yetirməyən insanlar, namaz qılmağı da ümumiyyətlə yaşlılıq dövrlərinə buraxarlar. Halbuki namaz, bütün digər ibadətlər kimi son dərəcə asan yerinə yetirilə biləcək bir ibadətdir.

Bunu ifadə etmək lazımdır ki, Allah bir insan üçün nəyi vacib etmişsə, o insan qulluq vəzifəsi olaraq onu etməklə məsuldur. Bunun qarşılığında isə, Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı ümid edə bilər. Allahın insanlara vacib etdiyi ibadətlərdə asanlıq verməsi isə, Allahın mərhəmətinin və şəfqətinin bir göstəricisidir. Allahın əmrlərinə uymayanların isə axirətdə, güclərinin çatmadığına və ya çətin gəldiyi üçün edə bilmədiklərinə dair heç bir bəhanələri olmayacaq. (Allahın Quranda bildirdiyi və bir məsuliyyət yükləmədiyini ifadə etdiyi insanlar xaric olmaq üzrə) Məsələn, dəstəmaz almaq son dərəcə asandır. Hətta, bir insanın dəstəmaz alması üçün su tapa bilmədiyi halda, Allah "təyəmmüm etmə"yi asan yol olaraq göstərmişdir ki, təyəmmüm

hər şərtdə asanlıqla yerinə yetirilə bilər. Allah su tapa bilməyənlərin necə təyəmmüm edəcəklərini bir ayəsində belə bildirir:

**"... Əgər cünub olmusunuzsa, təmizlənin. Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə, şükür edəsiniz!." (Maidə surəsi, 6)**

Allahın ayəsində də bildirdiyi kimi, Allah insanlara çətinlik çıxarmaq istəməz. Quranda bildirilən hər mövzuda Allah insanlar üçün asanlıqlar vermişdir. Allahın insanlar üçün əmr etdiyi ibadətlər iman edənlər üçün son dərəcə asandır. Allah, sonsuz rəhməti və mərhəməti ilə insanlar üçün ən asan və ən gözəl olan ibadətləri və həyat şəklini bildirmiş və bunlara uyanları isə, razılığı, rəhməti və cənnəti ilə müjdələmişdir.

**Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq sizə günah hesab edilməz. Həqiqətən kafirlər sizinlə açıq düşməndirlər. (Nisa surəsi, 101)**

Bu ayədən də aydın olduğu kimi, Allahın hər hökmü və hər əmri möminlərin hər biri üçün ayrı-ayrı hikmət və xeyirlərlə doludur. Allah qulları üçün çətinlik istəməz. Allah, möminlərin həqiqi dostu və tək vəkilidir.

Allah müsəlmanlara Ramazan ayında oruc tutmalarını əmr etmişdir. Ancaq Allah ayələriylə istisna vəziyyətləri yəni xəstəlik, səfər halı vəziyyətlərini də açıqlayaraq insanlar üçün çətinlik diləmədiyini, asanlıq dilədiyini bir daha bildirmişdir:

**İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və ayıran (Quran) ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, asanlıq istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona təzim və şükür edəsiniz. (Bəqərə surəsi, 185)**

Allahın hökmləriylə əlaqədar ayələrində, insanlar üçün asanlıq dilədiyini bildirməsi, dinin asanlığını düşünərək başa düşülməli olduğunu da göstərir. Çətinlik

yaşayacaqlarını zənn edərək, ibadətlərini yerinə yetirməkdən çəkinənlər böyük bir yanılma içindədirlər və dini səhv tanıyırlar.

Allah, şikəst olan insanların ibadət məsuliyyətlərini qaldırarkən rəhmətinin və sonsuz şəfqətinin dəlilini insanlara göstərir. Allah bunu bir ayəsində belə bildirir:

**Kora günah gəlməz, topala-şilə günah gəlməz, bir də xəstəyə günah gəlməz. Kim Allaha və Peyğəmbərinə itaət etsə, (Allah) onu altından çaylar axan cənnətlərə daxil edər. Kim üz döndərsə, onu şiddətli bir əzaba düçar edər! (Fəth surəsi, 17)**

Bir ayədə Allahın insanlara çətinlik çıxarmadığı və bunun, Onun şəfqətinin və mərhəmətinin bir göstəricisi olduğu belə ifadə edilir:

**... Əgər Allah diləsəydi sizə çətinlik çıxarardı. Şübhəsiz Allah güclü və üstün olandır, hökm və hikmət sahibidir. (Bəqərə surəsi, 220)**

And içmək, ümumiyyətlə insanlar arasında ağız vərdişi olaraq edilən məşhur bir davranışdır. Xüsusilə, birinə söz verərkən insan vərdişlə and içə bilər. Andlara sədaqət, verilən sözdə dayanmaq isə, Allahın Quranda əmr etdiyi bir mömin xüsusiyyətidir. Ancaq insan, unutqan bir varlıqdır, bəzi vəziyyətlərdə dalğınlıqla edəcəyi işi və ya verdiyi sözü unuda bilər. Bu, çox təbii, insani zəifliklərdən meydana gələn bir səhvdir. Bu vəziyyətdə Allah, təsadüfi, ağız vərdişi ilə, diqqət vermədən edilən andlardan insanları məsul tutmayaraq, möminlərin üzərindən bu məsuliyyəti götürmüşdür. Edilən andlara sədaqət, axirətdə soruşulacaq, ancaq Allahın Quranda istisna etdikləri, təsadüfi və məqsədsiz olaraq deyilən andlardır. Allah bunu bir ayəsində belə bildirir:

**Allah, bilmədən (səhvən) içdiyiniz andlara görə sizi cəzalandırmaz, lakin qəlblərinizin kəsb etdiyi şeylərə görə sizi cəzalandıracaqdır. Allah bağışlayandır, həlimdir! (Bəqərə surəsi, 225)**

Allahın and mövzusunda etdiyi bir başqa asanlıq daha vardır. Bir məqsəd üzərinə, şüurlu olaraq Allah adına and içən, sonra da bu andını pozmaq istəyənlər üçün, Allah bir asanlıq yolu göstərmişdir. Bu da andların kəffarə verməklə həll edilməsidir:

**Allah, andlarınızın (kəffarə verməklə) həll edilməsini sizə vacib etdi... (Təhrim surəsi, 2)**

**... ancaq içdiyiniz andları (pozmağa) görə cəzalandırar. Belə bir andın pozmağın kəffarəsi ailənizə yedirtdiyinizin orta hesabından on yoxsulu yedirdib doyurmaq, yaxud geyindirmək, yaxud da bir kölə azad etməkdir. Bunları etməyə imkanı olmayan şəxs üç gün oruc tutmalıdır. Bu, içdiyiniz andların kəffarəsidir. Bununla belə, andlarınızı qoruyun. Allah ayələrini sizə belə izah edir ki, bəlkə, şükür edəsiniz! (Maidə surəsi, 89)**

Ayələrdən aydın olduğu kimi, Allah hər iki vəziyyətdə də, insanların dinə uyğun hərəkət etmələri üçün asanlıq göstərir. Gözəl və doğru olan, əlbəttə, andların qorunmasıdır. Ancaq bir insan verdiyi sözü unuda bilər və ya söz verdiyi dövrdəki şərtlər dəyişə bilər və o adam sözünü tuta bilməyəcək bir vəziyyətə düşə bilər. Allah, insanlar üçün asanlıq diləyərək, andlara kəffarə olacaq vəziyyətləri bildirmiş və hər insan üçün bir yol göstərmişdir. Ayrıca andı pozma mövzusunda kəffarə kimi bir şərtin əmr edilməsi, insanın vicdanının səsini dinləməsi üçün də bir asanlıqdır. Andını pozan adam, kəffarə ödəmək vəziyyətində olacağı üçün, andını həqiqətən pozması lazımdırmı, yoxsa sözünü yerinə yetirə bilərmi deyə bir dəfə daha düşünəcək və bunun nəticəsində ən vicdanlı və ən doğru qərarı verəcəkdir.

Allah dinini son dərəcə asan etmişdir. İslam dini, hər zaman üçün və hər mövzuda asanlıq dinidir. İnsan səmimi dindar olmağa, Rəbbimizin nemətləri qarşısında şükür edici bir qul olmağa niyyət etdiyində, din əxlaqı mövzusunda heç bir çətinliklə qarşılaşmayacaqdır.

# ALLAHIN YARATDIĞI İMTAHAN ÇOX ASANDIR

Din əxlaqından uzaq yaşayan insanlar, həyatları boyunca, özləri üçün müxtəlif hədəflər təyin edirlər. Bu hədəflərin ortaq nöqtəsi isə, ümumiyyətlə, yalnız, dünya həyatına istiqamətli olmalarıdır. Məsələn, mütəxəssis bir həkim, müvəffəqiyyətli bir mühəndis, yaxşı bir ata, çox pul qazanan bir iş adamı ya da, dünya səviyyəsində məşhur bir sənətçi olmaq və bənzərləri, bir çox insanın ən böyük ideallarından sayıla bilər. Bunların xaricində, daha bir çox sahədə, insanlar, müvəffəqiyyəti, xoşbəxtliyi və rahat bir həyatı əldə edə bilmək üçün çalışır, səy göstərir, bəzən müxtəlif fədakarlıqlar edirlər və öz fikirlərinə görə "bir yerlərə gəlməyə" çalışırlar. Nəticədə, başları bu işlərə qarışır və dünyada olmalarının əsil məqsədini unudur və ya görməməzlikdən gəlirlər.

Halbuki, hər insanın, bütün həyatını və bir gün mütləq öləcəyini düşünərək özünə bəzi suallar verməsi vacibdir. "Mən bu dünyaya nə üçün gəlmişəm?", "Mövcud olmağımın səbəbi nədir?", "(Nümunə olaraq) Bəlkə yaxşı bir memar olub çox sayda bina dizaynı hazırladım, zəngin oldum, mal-mülk sahibi oldum, bir ad-san qazandım, tanındım, amma, bütün bunlar mənə nə qazandırdı? Ölümümdən sonra bunlardan hansının bir mənası olacaq? Dünyada tərk etdiklərimin mənə axirətdə nə kimi bir faydası olacaq? Həyatım yalnız bu dünya həyatımdan ibarətdirmi?" Bunlar, hər insanın ölüm gəlib çatmadan əvvəl soruşmalı olduğu suallardan bəziləridir.

Burada, bunu ifadə etmək lazımdır: İnsanlar əlbəttə ki, peşə sahibi olacaqlar, hətta, peşələrində son dərəcə müvəffəqiyyətli olmağı da diləyəcəklər və bunun üçün səylə çalışacaqlar. Ancaq, bunların hamısının insanın son hədəfi üçün bir vasitə olduqlarını unutmamaq da çox əhəmiyyətlidir. Təəssüf ki, insanların böyük bir hissəsi əsil məqsədlərini unudur və ya görməməzlikdən gəlirlər və bütün həyatlarını əslində vasitə olan bu keçici şeylərə həsr edirlər.

Halbuki, hər insan əgər azacıq belə düşünsə, görə biləcəyi çox əhəmiyyətli bir həqiqət vardır: Allah dünyanı da, insanları da bir hikmət üzərinə yaratmışdır. İnsanların yaradılış məqsədi, Quranda bildirildiyi kimi, yalnız Allaha qulluq etməkdir. Dünyanın yaradılış məqsədi isə, insanların axirətdəki mövqelərinin təyin olunması üçün bir imtahan yeri olmasıdır. Allah bu həqiqəti Quranda belə bildirir:

**Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün, ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır. (Mulk surəsi, 2*)***

Allah, insanlara, dünyanın keçiciliyini və sonsuza qədər yaşayacaqları əsil məkanın axirət olduğunu anlamalarını təmin edə biləcək çoxlu dəlillər vermişdir.

Məsələn, dünya üzərində yüzlərlə növ xəstəliklərin olması, mikroskopik bir virusun özündən milyonlarla qat böyük insan bədəninə ölümcül təsir edə bilməsi, insanın daimi təmizlənməyə, yemək yeməyə, istirahət etməyə və yuxuya möhtac olması, insan ömrünün orta hesabla 60-70 il kimi çox qısa bir müddət olması, zamanın insan üzərində son dərəcə dağıdıcı bir təsirinin olması, istisnasız hər kəsin sonunun mütləq ölüm olması, ömür boyu

əldə edilən malın, mülkün, etibarın, sevilənlərin arxada qalması, insan bədəninin torpaq içərisində çürümə müddətinə başlaması kimi bir çox səbəb, insanların dünya həyatının keçici və əskikliklərlə dolu, insan ruhunu əsla təmin edə bilməyəcək bir yer olduğunu anlamaları üçün kifayətdir əslində. Bütün bunlar, insanları dünyaya bağlanmalarına mane ola biləcək çox əhəmiyyətli həqiqətlərdir. Allah, Quranda, dünyanın məqsədsiz olaraq yaradılmadığını, müəyyən bir hikmət üzərinə var edildiyini belə bildirir:

**Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün yaratmadıq. Əgər, Biz, Özümüzə əyləncə düzəltmək fikrində olsaydıq, onu mütləq Öz yanımızda olanlardan hazırlayardıq. Lakin Biz bunu etmədik. (Ənbiya surəsi, 16-17)**

Halbuki, insan bir az düşündüyündə, dünyanın sonsuza qədər qalınacaq bir yer olmadığını, yalnız bir sınaq məkanı olduğunu, bu həyatın son dayanacaq deyil, əksinə, qısa daimi bir dayanacaq yeri olduğunu, bu keçici məkanda yaşadığı hər anından məsul tutulacağını, ən əhəmiyyətlisi özünü yoxdan var edən Rəbbimizə qarşı məsuliyyət daşıdığını rahatlıqla anlayacaq.

Bu anlayışa sahib olan insan, bir mərhələ daha irəliyə gedərək bunu düşünməlidir. Allah, dünyada bütün insanları müxtəlif hadisələrlə, şərlə və xeyirlə sınayır. Gün ərzində insanın qarşılaşdığı bütün hadisələr, əslində, ölümdən sonrakı sonsuz həyatda olacağı məkanı təyin edən sınaq yeridir və Allah hər insana bu sınaqda bir asanlıq etmiş və ona yolunu, yəni nə etməli olduğunu göstərdiyini bildirmişdir:

**İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun. (İnsan surəsi, 2-3)**

Ayələrdə bildirildiyi kimi, Allah bütün insanların həyatlarında mütləq onlar üçün doğru olan yolu göstərmiş, din və gözəl əxlaq haqqında məlumat sahibi olmalarını təmin etmişdir. Hər insan dünyanın keçici bir yer olduğunu və axirəti üçün həyatını, Allahın məmnun olacağı şəkildə yaşamalı olduğunu bir vəsilə ilə öyrənər. Bir sözlə, bu dünyada yaşanan, insanların xəbərdar olmadıqları və ya qazanmaq üçün nə etməli olduğunu bilmədikləri bir imtahan deyil. Allah, hər dövrdə göndərdiyi elçiləri, keçmişdə göndərmiş olduğu kitabları və hər insanda yaratdığı vicdan ilə, insanlara doğru yolu göstərər və onları səhv olanlardan çəkindirər. Allaha iman edən, tam bir təslimiyyətlə təslim olan, yalnız Allahı dost və vəkil olaraq görən, hər hadisədə Allaha yönələrək, ONA təvəkkül edən möminlər üçün, Allahın yaratdığı hər sınaq çox asan və zövqlüdür. İmanın sirrini bilənlər, Allaha səmimi olaraq iman edənlər üçün dünya həyatının heç bir anında çətinlik, kədər, cəfa, sıxıntı olmaz. Hər hadisə, Allaha yaxınlaşmaq və cənnəti daha şiddətli ümid edə bilmək üçün bir nemətə çevrilər.

Səmimi imanın şərtlərindən biri də Allahı çox yaxşı tanımaq və bilməkdir. Bir insan Allahı nə qədər yaxşı tanısa, Allahın gücünü nə qədər yaxşı bilsə, təqvası və Allaha yaxınlığı da o qədər güclü olar. Məsələn, Allahın bağışlayıcılığını bilən bir insan, heç bir zaman səhvlərindən və ya əskikliklərindən ötrü ümidsizliyə və ya pessimizmə qapılmaz. Allahın ruzi

verən olduğuna iman edən biri, pul qazanma məsələsində hərislik göstərməz. Ruzini verənin Allah olduğunu bilər, səylə çalışar, cəhd edər, amma ruzinin miqdarını Allahın təyin etdiyini və özünün dəyişdirə bilməyəcəyini bilmənin təslimiyyətini yaşayar. Bu səbəbdən, Allahı bilən və tanıyan bir insan üçün dünya həyatı böyük bir asanlıq və nemətlərlə doludur. O insan hər an Allahın bir təcəllisini və yaradılışındakı bir gözəlliyi görərək yaşayar. Qısaca olaraq, Allaha təslim olmuş saleh müsəlmanlar üçün Allahın yaratdığı imtahan son dərəcə asan və zövqlüdür.

Allahın sonsuz şəfqəti və mərhəməti insanlar üçün çox böyük bir nemətdir. Çünki, insan qəflətə düşə bilən, unuda bilən, yanıla bilən, səhv edə bilən bir varlıqdır. Allah sonsuz mərhəməti ilə insanlara, hər zaman səhvlərindən ötrü bağışlanma diləmək və tövbə etmək imkanı vermişdir. Allahın əzabına uğrama qorxusu ilə, səmimi olaraq, günahlarının bağışlanılmasını istəyən hər insan, Allahın, onu bağışlamasını ümid edə bilər. Çünki, Quranda bildirildiyi kimi, **"Allah, sizin tövbələri qəbul etmək istəyir..." (Nisa surəsi, 27)** Allah bir ayəsində də, bağışlayıcı olduğunu belə bildirir:

**Hər kəs pis iş gördükdən və ya özünə zülm etdikdən sonra Allahdan bağışlanmağını dilərsə, Allahın bağışlayan, mərhəmətli olduğunu görər. (Nisə surəsi, 110)**

Allah, bağışlayıcılığı ilə insanlara həyatları boyunca, davamlı olaraq, yeni fürsətlər verər. İnsanın etməli olduğu tək şey səhvinə bir daha dönməmək üzrə, səhvlərindən imtina etməsi və ölüm anı gəlmədən əvvəl vicdanının səsini dinləyərək tövbə etməsidir. Allah, yalnız, səmimiyyətsiz insanların tövbələrinin qəbul edilməyəcəyini bir ayəsində belə bildirir:

**Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq! (Nisa surəsi, 18)**

Allahın, insanların günahlarını bağışlaması, cəzalarını təxirə salması və onlara həyatları boyunca hər an yeni bir imkan daha verməsi, insanlara çox böyük bir lütfü, rəhmətinin və mərhəmətinin bir təcəllisidir. Əgər, insanlar günahları səbəbi ilə dərhal sorğulanaraq cəzalandırılsaydılar, Allahın bildirdiyi kimi yer üzündə canlı heç bir varlıq qalmazdı:

**Əgər, Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin, Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Bu səbəbdən, insanlar səhvləri və ya günahları nə olursa olsun, heç bir zaman Allahın razı olduğu kimi bir qul ola bilmək üçün gecikmiş deyildirlər. İnsan həyatı boyunca nə qədər səhv etmiş olursa olsun, dindən nə qədər uzaq yaşamış olursa olsun, səmimi olaraq tövbə etdiyi və saleh bir qul olması halında, keçmişdə etdiyi səhvləri düşünməsinə ehtiyac yoxdur. Keçmişdə yaşananlar, insanlar üçün ancaq bir ibrət vəsiləsi, eyni səhvlərə təkrar dönməməsi,

bənzərlərini bir daha etməməsi üçün öyüd almalı olduğu xatirələrdir. Allah, xəbərdarlıq alıb doğru yolu tapan saleh qullarını, keçmişlərindən məsul tutmayacağını Quranda xəbər vermişdir:

**Ey iman gətirənlər! İhramda ikən ovu öldürməyin. Sizlərdən kim onu qəsdən öldürərsə, kəffarəsi öldürdüyünə bənzər bir qurbanlıq heyvanı əvəz ödəməkdir. Buna sizlərdən iki ədalətli kişi qərar verməli, sonra da həmin qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır. Yaxud kəffarə olaraq kasıbları yedirtməli, yaxud da, buna bərabər oruc tutmalıdır ki, öz işinin zərərini dadsın. Allah olub-keçənləri bağışlamışdır. Hər kim yenə bu günaha qayıtsa, Allah ondan intiqam alar. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. (Maidə surəsi, 95)**

**Kafir olanlara de ki, əgər küfrə son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər küfrə qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər. (Ənfal surəsi, 38)**

Şübhəsiz , bu, Allahın dində insanlara lütf etdiyi böyük bir asanlıqdır.

Din əxlaqından uzaq cəmiyyətlərdə Allaha dua etmək müxtəlif batil inanc və xurafatlarla çətinləşdirilmişdir. İnsanlar hər an Allaha yönələ biləcəkləri halda, bunun üçün zamanlar təyin etmişlər və ya araya vasitələr qoymuşlardır. Allah bu batil inanclara qarşı insanları belə xəbərdar edir:

**De: "Mənə gələn vəhylər içərisində ölü heyvan, axar qan, murdar sayılan donuz əti və Allahdan başqasının adı ilə (günah olaraq) kəsilmiş heyvanlardan başqa, hər hansı bir şəxsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm". Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, ona günah gəlməz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir. (Ənam surəsi, 145)**

Allaha dua etmək üçün müxtəlif vasitəçilərə gərək olduğunu söyləyən insanlar, əslində, dini çətin göstərərək, insanları yoldan döndərirlər. Çünki, **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq." (Qaf surəsi, 16)** ayəsi ilə bildirildiyi kimi, insana ən yaxın olan daim Allahdır. Yəni, insan hər dilədiyi zaman Allaha yönələ bilər, dilədiyi anda Rəbbimizə səsini eşitdirə bilər, dua ilə kömək diləyə bilər.

Dua etmək üçün xüsusi vaxtlar təyin etməyə də ehtiyac yoxdur. Hər an, hər dəqiqə Allaha dua edilə bilər. Əks halda, insan özbaşına qaydalar çıxartmış olar. İnsan bir yerdən bir yerə gedərkən, nərdivanlardan enərkən, alver edərkən, yemək hazırlayarkən, televizora baxarkən, liftdə olarkən, bir yerdə gözləyərkən, gecə yatarkən, səhər qalxarkən, nahar edərkən, avtomobil istifadə edərkən bir sözlə, hər yerdə və hər vaxt Allaha dua edərək, Allahdan istədiklərini diləyə bilər. Bunun üçün ağlından keçirməsi belə kafidir, çünki, Allah insanın sinəsində gizlətdiklərini bilən, hər şeydən xəbərdar olandır.

Bununla birlikdə Allaha dua edən hər kəs Allahın dualara mütləq cavab verəcəyini bilməlidir. Allah ehtiyac içində olan insanların daim Ona yönəldikləri təqdirdə, işlərini asanlaşdıracağını bu ayə ilə bildirir:

**Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? (Nəml surəsi, 62)**

Allahın qullarına verdiyi bu imkan şübhəsiz ki, sonsuz rəhmətinin bir təcəllisidir. Allah, Quranda insanlara yaxınlığını, Ona yönələnlərin vəlisi olacağını və dua edənin duasına şübhəsiz cavab verəcəyini bir çox ayəsində bildirir. Bu ayələrdən biri belədir:

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)**

Möminlərin, Allahın bu rəhməti və neməti üzərində bir daha düşünərək, Allahın rizasına uyğun yaşamaları lazımdır. Çünki, Allahın, onlara verdiyi bu asanlıq elə böyük və sərhədsiz bir imkandır ki, hər şeyin Hakimi, Sahibi olan tək güc Allah, insanlara istədikləri hər şeyə cavab verəcəyini vəd edir və Allah qətiyyən vədindən dönməz.

Bir insanın həyatında qarşılaşdığı hadisələr hər nə qədər o anda ona çətin kimi görünsə də, əslində, hər biri o adamın səbir edə biləcəyi şəkildə meydana gəlir. İnsanı yaradan və ona ruh verən Allahdır. Hər insanın nəyə nə qədər dözə biləcəyini, nə qədər yükü və çətinliyi qaldıra biləcəyini də, ən yaxşı Allah bilir.

Allah kimsəyə qaldıracağından çoxunun yüklənməyəcəyini və kimsənin haqsızlığa uğradılmayacağını bir çox ayəsində bildirmişdir:

**Allah, hər kəsi, yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, 286)**

**İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik. (Əraf surəsi, 42)**

Şübhəsiz, hər insanın səbir edəcəyi, təvəkkül göstərəcəyi hadisələr eyni ola bilməz. Bir çox insan fərqli hadisələrlə sınanır. Ancaq, nəticədə Allah, hər insan üçün, gücü çatdığı dərəcədə imtahan edər. Məsələn, bəzi insanlar dünyada yoxsul bir həyat sürər və yoxluq içində nə qədər səbir göstərdiyi sınanar. Digərləri isə, zənginlik və bolluq içində yaşayar və bu həyat içində nə qədər şükür edici, nə qədər gözəl əxlaqlı olduğu ilə sınanar, dünya həyatına ehtirasla bağlanıb-bağlanmadığı məsələsində sınanar. Amma, nəticədə, zəngin olan da,

yoxsul olan da özləri üçün ən xeyirli həyatı yaşayır. Kasıb olan nə qədər yoxluq çəksə də, bu, onun üçün dayanıla bilməyəcək bir çətinlik deyildir. Eyni şəkildə, zəngin olan nə qədər bolluq içində olsa da, bu onun nankor bir insan olmağa məcbur edə bilməz.

Nəticədə, bu insanların Allaha olan bağlılıqları, hesab gününə olan qorxuları, onların Quran əxlaqını yaşayan, dinin əmrlərini yerinə yetirən insanlar olmalarını təmin edər. Bu insanlar qarşılaşdıqları hər hadisədə daim Allaha yönələr, Ondan kömək diləyər, yalnız, Rəbbimizin razılığını axtararlar. Belə insanlar heç bir zaman çətinliklər qarşısında zəiflik göstərməz, sınandıqları hadisə nə qədər şiddətli olsa da, dindən uzaqlaşmazlar. Belə Allaha güvənən insanlar üçün, Allah, sonsuz şəfqətinin və mərhəmətinin bir göstəricisi olaraq, ən çətin görünən hadisəni də asanlaşdırar. **"İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat (Cənnət) gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!" (Kəhf surəsi, 88)** ayəsində də, bu bildirilmişdir. Allah bu həqiqəti başqa ayələrində isə belə xəbər vermişdir:

**Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa və ən gözəl sözü təsdiq etsə, Biz ona ən asan olanı müyəssər edəcəyik! (Leyl surəsi, 5-7)**

Bir insanın həyatında qarşılaşdığı hadisələr hər nə qədər o anda ona çətin kimi görünsə də, əslində hər biri o adamın səbir edə biləcəyi dərəcədə meydana gəlir. İnsanı yaradan və ona ruh verən Allahdır. Hər insanın nəyə, nə qədər dözə biləcəyini, nə qədər yükü və çətinliyi qaldıra biləcəyini də ən yaxşı Allah bilir.

Allah kimsəyə qaldıracağından çoxunun yüklənməyəcəyini və kimsənin haqsızlığa uğradılmayacağını bir çox ayəsində bildirmişdir:

**Kim də xəsislik edərək Rəbbinə ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik. Cəhənnəmə düşdükdə var-dövləti ona fayda verməyəcək. Şübhəsiz ki, doğru yola yönəltmək Bizə aiddir. (Leyl surəsi, 8-12)**

Allah dünya həyatında insanları sınayarkən, sonsuz rəhmətinin bir nəticəsi olaraq, hər çətinliklə birlikdə mütləq bir asanlıq yaradacağını da müjdələmişdir. Allah ayələrində bu müjdəni belə bildirir:

**Deməк ki, həqiqətən çətinliklə birlikdə asanlıq vardır. Həqiqətən çətinliklə birlikdə asanlıq vardır. (İnşirah surəsi, 5-6)**

Quranda peyğəmbərlərin və saleh möminlərin həyatlarına baxıldıqda, qarşılaşdıqları çətin kimi görünən hər cür vəziyyətdə, Allahın, mütləq bir asanlıq yaratdığı diqqət çəkir. Allah, **"Fəttah"** sifəti ilə hər cür çətinliyi açan, asanlaşdırandır.

Quranda Allah yolunda mübarizə edərkən qarşılaşdıqları reaksiyalar və məruz qaldıqları şiddət üzündən, yaşadıqları yerdən ayrılmaq vəziyyətində buraxılan, yəni hicrət

edən möminlər nümunə verilir. Bu insanlar bütün işlərini, evlərini, bağçalarını, mallarını buraxaraq, heç tanımadıqları torpaqlara, tanımadıqları insanların yanlarına köçmək məcburiyyətində qalmışdılar. Bu kənardan baxılanda çətin bir vəziyyətdir. Ancaq, Allah, Nisa surəsində hicrət edən möminlərin vəziyyətlərini asanlaşdırdığını və onları nemətləndirdiyini belə bildirir:

**Kim Allah üçün hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar. Kim Allaha və Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir. (Nisa surəsi, 100)**

Necə ki, Allah bu vədini Peyğəmbərimiz (s.ə.v.) dövründə yaşayan möminlər üzərində açıqca göstərmişdir. Dünyəvi dəyərlərə əhəmiyyət verməyən səhabələr, Allah yolunda hər cür fədakarlığı edərək müxtəlif çətinlikləri gözə aldıqları üçün, Allah bu gözəl əxlaqlarına qarşılıq olaraq, onları ən gözəl şəkildə ruzi və sığınacaq vermişdi. Onların hər işlərini digər insanlara nisbətən asanlaşdırmışdı. Səhabələrin yaşadıqları bu asanlıq və rəhməti, Allah bir ayəsində belə xəbər verir:

**Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız, kafir adamların sizi ələ keçirəcəyindən qorxurdunuz. Allah sizə sığınacaq verdi, Öz köməyi ilə sizi qüvvətləndirdi və sizə pak ruzilərdən verdi ki, bəlkə şükür edəsiniz. (Ənfal surəsi, 26)**

Digər peyğəmbərlərin həyatlarındakı daha bir çox nümunə də, Allahın möminlərə təmin etdiyi asanlıqların açıq-aşkar göstəriciləridir.

Məsələn, hz.Yusifin həyatındakı bir çox hadisədə Allahın rəhmətindən verdiyi bu asanlıq görünür. Hz. Yusif onu qısqanan qardaşları tərəfindən quyuya atıldıqdan sonra, quyunun yanından keçən bir karvan tərəfindən tapılmışdır. Hz. Yusifi quyudan qurtaran kəslər onu, kölə olaraq bir vəzirə satmışdılar. Bir müddət sonra, hz. Yusif, heç bir günahı olmadığı halda ona atılan böhtanlara görə zindana atılmışdır. Hz. Yusifin həyatındakı bu hadisələr, ilk baxışda çox çətin bir vəziyyət kimi görünə bilər. Ancaq, Allah, hz. Yusifin göstərdiyi gözəl əxlaqa və təvəkkülə qarşılıq onu dünyada da mükafatlandırmış və çətinliklərlə birlikdə mütləq asanlıq da verdiyini göstərmişdir. Hz. Yusif, başına gələn bir çox mənfi kimi görünən hadisənin vəsiləsiylə, xəzinənin başına gətirilərək əhəmiyyətli bir idarəçi olmuşdur.

Allah, hz. Musanın həyatında da qarşılaşdığı çətinliklərlə birlikdə asanlıqlar verərək, möminləri dəstəkləmişdir. Hz. Musa, əsrlər boyu yaşamış ən azğın insanlardan biri olan Firona qarşı mübarizəsində də, Allahın köməyi və dəstəyi ilə üstünlük əldə etmişdir. Allah, ona, qardaşı Harunu bir köməkçi olaraq verməsi üçün dua edən hz. Musanın duasını qəbul etmişdir. Bundan əlavə, Allah, hz. Musanı bəzi möcüzəvi hadisələrlə də dəstəkləyərək, onun Fironun cadugərlərinin qarşısında qalibiyyət əldə etməsini də təmin etmişdir. Hz. Musa da, ən çətin anlarda belə, Allahın köməyinin iman edənlərlə birlikdə olduğunu unutmamışdır. Bir yandan Fironun əsgərləri tərəfindən izlənilərkən, digər tərəfdən də, dəniz ilə qarşılaşan hz. Musa yanındakı möminlərə Allahın köməyinin daim yanında olduğunu söyləmiş və Allahın mütləq bir çıxış yolu göstərəcəyini xatırlatmışdır:

**Musa dedi: "Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcəkdir!" Biz Musaya: "Əsanla dənizə vur!"- deyə vəhy etdik. Dəniz dərhal yarıldı, on iki yol açıldı və hər biri nəhəng bir dağ kimi oldu. O biriləri də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O biriləri (Firon və onun ordusunu) isə suya qərq etdik. (Şüəra surəsi, 62-66)**

Peyğəmbərlərin həyatından bir başqa nümunə isə, hz. Məhəmməd (s.ə.v.)-in müşriklər tərəfindən izlənilərkən, bir mağaraya gizlənməsi əsnasında, yanında bir möminin olmasıdır. Peyğəmbərimiz hz. Məhəmmədin, Allaha şirk qoşanların təhdidi altındaykən, yanında dəstəkçi bir möminin olması Allahın nəsib etdiyi asanlıqlardan biridir:

**Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 40)**

Əslində, insan hikmət gözüylə baxanda həyatının hər anında Allahın onun üçün yaratdığı asanlıqları görə bilər. Ancaq, bu həqiqəti görə bilən insanlar Allahdan qorxub çəkinən, Allaha təvəkkül edən, hər çətinliklə qarşılaşdığında bunun qədərində (taleyində) olduğunu bilərək, tək dost və vəlisinin Allah olduğuna iman edənlərdir. Allah ayələrində belə qullarını gözləmədikləri yerlərdən ruzi verərək, onların işlərini asanlaşdıracağını bildirir:

**Gözləmə vaxtı bitdikdə, onları şəriətə müvafiq olaraq saxlayın və yaxud onlardan müvafiq qaydada ayrılın. Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin. Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur. Allahdan qorxana, Allah çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah, Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 2-3)**

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Allahın ayələrində də bildirdiyi kimi, qoyduğu hökmlərə səmimiyyətlə bağlı olanlar üçün, mütləq bir asanlıq yaradır. Buna iman edən möminlər heç bir zaman çətinliklər qarşısında zəiflik göstərməzlər.

Allah, İnşirah surəsində də hər çətinliklə birlikdə bir asanlıq olduğunu və Onun, insanın üzərindəki yükü qaldırıb atan olduğunu belə müjdələmişdir:

**Məgər, Biz sənin üçün köksünü açmadıqmı? Yükünü səndən götürmədikmi? Onlar belini bükürdü. Biz, adını sənə görə ucaltmadıqmı? Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. İşlərini qurtaran kimi Allah yolunda çalış! Ancaq Rəbbinə üz tut! (İnşirah surəsi, 1-6)**

Allahın, möminlərə olan köməyi müxtəlif şəkillərdə təcəlli edir. Allahın köməklərindən biri, mələkləri möminlərin çətin anlarında köməyinə göndərməsidir. Allah, Quranda bu köməyi Peyğəmbərimiz (s.ə.v.) dövründə yaşanmış olan bir hadisəni nümunə verərək belə xəbər vermişdir:

**O vaxt sən möminlərə demişdin: "Rəbbinizin göndərdiyi üç min mələyin köməyinizə çatması, sizə bəs etmirmi?" Əlbəttə, siz səbir etsəniz, Allahdan qorxsanız və onlar bu saat sizin üstünüzə hücuma keçsələr, Rəbbiniz, nişanlanmış beş min mələklə sizə yardım edər. Allah bunu sizə ancaq bir müjdə və qəlbiniz bununla sakit olsun deyə etdi. Kömək ancaq, Qüdrətli və Hikmət sahibi olan Allahdandır. (Ali İmran surəsi, 124-126)**

Allah bir başqa ayəsində isə, möminlərə görünməyən ordularla da kömək etdiyini açıqlamışdır:

**Ey iman edənlər! Allahın sizə göstərdiyi iltifatını xatırlayın. O zaman ki, düşmən ordusu sizin üstünüzə hücuma keçmişdi, Biz də onların üstünə külək və görmədiyiniz qoşunlar göndərmişdik. Allah sizin nə etdiyinizi görür. (Əhzap surəsi, 9)**

Allah bir başqa ayəsində isə, Allahın Quranda möminlərin daim qalib gələcəklərini bildirməsi, möminlər üçün gözəl və şövqləndirici bir vəddir. Ancaq, burada bir nöqtəyə daha diqqət çəkməkdə fayda vardır. Hər kömək Allahdandır və şübhəsiz, bütün gücün sahibi Allahdır. Möminlər, əsil zəfər və köməyin əslində Allaha aid olduğunu bilirlər. Mələklərin dəstək olmasının isə, Allahın bir müjdəsi, onlara kömək və dəstəyinin mələklərin köməyi şəklindəki təcəllisi olduğunu əsla unutmazlar. Çünki, Rəbbimiz ayələrində bu həqiqəti belə xatırlatmışdır:

**O vaxt siz, Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" - deyə duanızı qəbul etmişdi. Allah bunu yalnız bir müjdə və onunla qəlbiniz rahatlıq tapsın deyə belə etdi. Qələbə yalnız Allahdandır. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir. (Ənfal surəsi, 9-10)**

Allahın dilədiyi quluna, dilədiyi şəkildə kömək edəcəyini bilən möminlərin, ən çətin anlarda da, içlərində bir güvən və hüzur duyğusu olar. Bu ruh halı içində mənəvi cəhətdən, son dərəcə gözəl bir həyat yaşayarlar.

Allahın bir təqdiri (gələcəkdə olacaq şeyləri əzəldən bilib yazması) olaraq iman edənlərin sayı hər dövrdə həmişə az olmuşdur. Ancaq, qalib gələnlər, say cəhətdən üstün olanlar deyil, hər zaman mömin olanlardır. Möminlər, Allahın verdiyi ağıl, fərasət, bəsirət, gözəl əxlaq kimi nemətlərlə, daim inkarçılara qarşı müvəffəqiyyət əldə etmişlər. Bununla bərabər, Allah, bəzən möminləri inkarçıların gözündə say və qüvvət cəhətdən də çox göstərdiyini və bunun, inkarçılarda zülmətə və qorxuya səbəb olduğunu da xəbər vermişdir. Allah ayələrində Səadət Əsri (Əsri-Səadət) dövründə reallaşan bir hadisəni belə bildirir:

**Onlarla üz-üzə gəldiyiniz zaman Allah, olacaq işi yerinə yetirmək məqsədilə, onları, sizin gözünüzdə (sayca) az göstərir, sizi də onların gözündə azaldırdı. Bütün işlər axırda Allaha qayıdacaqdır. Ey iman edənlər! Bir dəstə (kafir dəstəsi) ilə üz-üzə gəldikdə möhkəm olun və Allahı çox yada salın ki, nicat tapasınız! (Ənfal surəsi, 44-45)**

Az saydakı möminin inkarçıların gözündə son dərəcə güclü və çətin, sıx bir birlik olaraq görülməsi, şübhəsiz, Allahın möcüzələrindən biridir və eyni zamanda möminlər baxımından da çox böyük bir asanlıq olmuşdur. Beləcə, Allah möminlərə müvəffəqiyyət qazandırmışdır.

Bundan əlavə, Allah başqa ayələrdə peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v.)-ə dilədiyi zaman möminlərin gücünü olduğundan qat-qat daha çox artıracağını bildirmişdir. Səbir etmələrinə qarşılıq olaraq inanan qullarına ümid etdiklərindən daha çox böyük bir güc və zəfər verəcəyini belə vəd etmişdir:

**Ey Peyğəmbər! Möminləri döyüşə həvəsləndir (ruhlandır). Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr, əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr. Çünki, onlar anlamayan tayfadır.**

**İndi, Allah sizin yükünüzü yüngülləşdirdi. Çünki, O, sizdə zəiflik olduğunu bilirdi. Əgər, aranızda yüz səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr, əgər aranızda min səbirli kişi olsa, Allahın izni ilə kafirlərdən iki mininə qalib gələr. Allah səbir edənlərlədir. (Ənfal surəsi 65-66)**

Allah, yuxarıdakı ayələrdə bildirdiyi kimi Peyğəmbərimiz (s.ə.v.)-in dövründə möminlər çətin bir döyüşdə olduqları üçün, inkarçıların gözündə say və qüvvət cəhətdən daha çox və daha güclü göstərərək möminləri dəstəkləmişdir. Çünki, Allah möminlərin daim dostu və köməkçisidir. İnkar edənlər nə qədər çox sayda olsalar da, nə qədər böyük bir gücə sahib olsalar da, nəticədə bütün güc sahibi Allahdır. Allah, tək bir "Ol" əmri ilə dilədiyini edəndir. Allaha güvənən, Onun sonsuz qüdrətini, hər şeyə gücü çatan olduğunu təqdir edə bilən insanlar daim, bunun rahatlığını yaşayarlar.

**O vaxt siz, Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" - deyə duanızı qəbul etmişdi. Allah, bunu, yalnız, bir müjdə və onunla qəlbiniz rahatlıq tapsın deyə belə etdi. Qələbə yalnız Allahdandır. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Ənfal surəsi, 9-10)**

Allahın dilədiyi quluna, dilədiyi şəkildə kömək edəcəyini bilən möminlərin, ən çətin anlarda belə, içlərində bir güvən və hüzur duyğusu olar. Bu ruh halı içində, mənəvi cəhətdən, son dərəcə gözəl bir həyat yaşayarlar.

Allah, Ənfal surəsində yenə Peyğəmbərimiz (s.ə.v.) dövründə yaşanan bir çətin anda möminlərə verdiyi mənəvi dəstəyi belə xəbər verir:

**O zaman Allah, Öz tərəfindən bir təskinlik olsun deyə, sizə yüngül bir mürgü göndərmiş, göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin. (Ənfal surəsi, 11)**

Ayədə bildirilən **"mürgüləmə"** ifadəsi şübhəsiz, mənəvi bir yuxuya işarə edir. Allah, çətinlik anında səmimi olanların üzərinə belə bir hal vermiş və bu mənəvi dəstəyin nəticəsində möminlər rahatlıq, güvən və möhkəmlik duyğusunu yaşamışlar.

Əslində, bu rahatlıq və güvən duyğusu, möminlərin bütün həyatlarına hakimdir. Allaha və axirətə iman edən insanlar, Allahın, hər şeyin tək hakimi olduğunu bildikləri üçün, heç bir hadisə qarşısında təlaşa qapılmazlar, hüznə və çətinliyə düşməzlər. Rəbbimizin, hər şeyi onlar üçün ən xeyirli olacaq şəkildə, axirətlərinə ən faydalı olacaq şəkildə yaratdığını bilərlər.

**"Əgər Allah sizə kömək edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O, sizi zəlil edərsə, Ondan sonra kim sizə yardım edə bilər? Buna görə də, möminlər Allaha təvəkkül etsinlər!" (Ali İmran surəsi, 160)** ayəsinə qəti olaraq iman edər və təvəkkülün mənəvi rahatlığı içində həyatlarını davam etdirərlər. Qarşılaşdıqları çətinlik nə qədər böyük görünsə də, nəticədə, keçici olduğunun şüurundadırlar. Çünki, dünyadakı həyatın sonsuz axirət həyatı yanında çox qısa bir zaman olduğunu unutmazlar.

Dünyada qarşılaşa biləcək bir çətinlik, insanın bütün həyatını əhatə etsə belə, ən çox 50-60 il davam edəcək. 50-60 il təvəkkül və gözəl əxlaqla keçirilən bir ömrünə, sonsuz cənnət həyatında yaşadığı qarşılıq isə, şübhəsiz bənzərsiz olacaq. Cənnətdə, möminlər, heç bir çətinlik, hüzn, yoxluq yaşamayacaq, əksinə, sonsuz gözəlliklər içində nəfslərinin arzu etdikləri hər şeyə qovuşacaqlar.

Bu həqiqətin şüurunda olmaq, iman edən bir insanın hər hadisə qarşısında dönməz və sarsılmaz bir təvəkkül yaşamasını təmin edər. Bunun mənəvi rahatlıq və sevinc duyğusu da, dünyadakı ən böyük asanlıqlardan biridir.

Unudulmamalıdır ki, bütün ürəklər və bütün güc Allahın əlindədir. Allah dilədiyi an, dilədiyi hadisəni, dilədiyi şəkildə yaradar. Rahatlıq və təhlükəsizlik axtaran insan, Allah vermədikcə heç vaxt buna nail ola bilməz. Quran əxlaqının insanlara gətirdiyi asanlıq, insanın, hər şeyin Allahın idarəsində olduğunu bilməsidir. Hər işində Allaha yönələn, hər işinin qarşılığını yalnız Allahdan gözləyən insan, daim Allahın köməyini və dəstəyini müxtəlif yollarla görəcək.

**Xeyr, Allah sizin ixtiyar sahibinizdir. O, yardım edənlərin ən yaxşısıdır. (Ali İmran surəsi, 150)**

# QURAN ƏXLAQINI YAŞAMAĞIN ASANLIĞI

**Allah istər ki, üzərinizdə olanı (ağırlığı) yüngülləşdirsin, çünki, insan zəif olaraq yaradılmışdır. (Nisa surəsi, 28)**

Fədakar, etibarlı, şəfqətli, təvazökar, dürüst olmaq, gözəl söz söyləmək, yoxsulu yedirmək, sözünün üstündə durmaq, alınan bir əmanəti zamanında qaytarmaq, bağışlayıcı, təvəkküllü, səbirli, əliaçıq, hörmətli, etiqadlı olmaq, başqalarının haqqını yeməmək, saxtakarlıq etməmək, insanları özündən aşağı görməmək kimi gözəl xüsusiyyətlər, Allahın insanlara əmr etdiyi Quran əxlaqının əsaslarından bəziləridir.

Əslində insanların hamısı vicdanlarında Allahın məmnun olacağı gözəl əxlaqın nə olduğunu çox yaxşı bilirlər. Buna baxmayaraq şeytan, insanların əksəriyyətinə bu əxlaqı yaşamağı çətin və qeyri-mümkün göstərir. Hətta gözəl əxlaqın, yalnız peyğəmbərlərə və səhabələrə xas bir üstünlük olaraq qəbul edilir. Cahil cəmiyyətin sahib olduğu bəzi gözəl əxlaq xüsusiyyətləri isə, "pambıq ipə bağlı kimidir, ən kiçik bir zərbədə qopar" deyərək qəbul olunur. Məsələn, ən ədəbli və etiqadlı bilinən bir insan belə, mənfəətinə xələl gəldiyində hiddətlənə bilər, idarəsini itirər, kobud və təcavüzkar rəftarlar göstərə bilər. Ən kiçik şeydə belə, səbir etməzlər. Cəmiyyətimizdə insanların əksəriyyəti bu uyğunsuz əxlaq anlayışını daşıyırlar. Əksər insanlar bir-birinə bənzər rəftarlar göstərdiyi üçün, cahil cəmiyyət əxlaqının məhsulları olan eqoizm, öz mənfəətlərini qorumaq üçün başqalarını əzmək, saxtakarlıq, yalançı olmaq, ikiüzlülük, mərhəmətsizlik, lağ-lağlıq, həyasızlıq, kobudluq, qısqanclıq və s. çox təbii xüsusiyyətlər kimi görünür. Hətta, bir adam özünü tərifləyərkən "Mən çox inadçı, qısqanc və xəsisəm" kimi son dərəcə pis xüsusiyyətləri, sanki, şəxsiyyətinin əhəmiyyətli və gözəl parçalarıymış kimi sadalaya bilər. Bu səbəbdən, insanların çox böyük bir qismi ümumiyyətlə bir-birlərini və özlərini bu mənfi xüsusiyyətləriylə qəbul edirlər.

Hətta, xalq arasında ümumiyyətlə "Bir insan yeddisində nədirsə yetmişində də odur" deyimi istifadə edilir. Bu səhv anlayışa görə sahib olunan pis xüsusiyyətlərin, xasiyyətlərin, vərdişlərin dəyişməməyi, həyatı boyunca eyni qalması, məqbul qarşılanır. Halbuki, daha əvvəl də ifadə etdiyimiz kimi, Allah insanı din fitrətinə uyğun olaraq yaratmışdır. Bu səbəbdən insanın təbiətində gözəl əxlaqı görməkdən və tətbiq etməkdən zövq almaq lazımdır. Digər yollar isə, çətin və insana iztirab verici olanlardır. Yaxın tariximizin əhəmiyyətli İslam alimlərindən biri olan Bədiüzzaman Səid Nursi, "Şüalar" adlı əsərində, imanlı bir həyatın asanlığına və küfrün insan həyatına gətirdiyi çətinliyinə belə diqqət çəkir:

*"İman və tövhid (Allahın birliyini qəbul etmə) yolu, çox qısa və doğru, müstəqim (düzgün) və asandır. Küfr və inkar yolları çox uzun, müşkül və təhlükəlidir. Deməli ki, bu istiqamətli və hikmətli, hər şeydə ən qısa və asan yolda göndərilən bu kainatda, əlbəttə şirk və küfrün həqiqətləri ola bilməz, iman və tövhidin həqiqətləri bu kainata günəş kimi lazımlı və*

*vacibdir. İnsanın əxlaqında ən rahat, ən faydalı, ən qısa, ən etibarlı yol isə sıratı müstəqim istiqamətindədir." (Şüalar, səh. 490)*

Bədiüzzaman bir başqa sözündə də, bu mövzunu bu ifadələrlə açıqlamışdır:

*"Küfr yolunda getmək, buzlar üzərində getməkdən daha zəhmətli və daha təhlükəlidir. İman yolu isə, suda, havada, piyada getmək və üzmək kimi çox asan və zəhmətsizdir." (Məsnəviyi Nuriyyə, səh. 71)*

İmansız insan həyatında bəlkə bəzi zövqləri ala bilər. Amma, bunlar çox qısadır və mütləq ardından iztirab və əziyyəti də gəlir. İnsan nə qədər zənginlik, bolluq, gözəllik, zövq içində yaşasa da, əgər imanı yoxdursa, bunların hamısının bir gün əlindən çıxacağının qorxusu ilə yaşayar. Bütün sahib olduqları ya dünyada qarşılaşdığı bir hadisə ilə əlindən çıxacaq ya da bir gün ölümlə birlikdə məcburən bunlardan uzaqlaşacaq. Yəni, axirətə iman və Allaha təvəkkül olmayan bir yerdə həqiqət, dinclik və zövqün yaşanması qətiyyən mümkün olmaz. Səid Nursi, iman və gözəl əxlaq olmadığı halda insanın necə bir nəticə ilə qarşılaşacağını belə ifadə edir:

*"Həyat isə, əgər iman olmazsa və yaxud üsyana o iman təsir etməzsə; həyat, zahiri və qısacıq bir zövq və ləzzətlə birlikdə, o zövq və ləzzətdən min dəfələrlə çox əzablar, hüznlər, kədərlər verər." (Sözlər, səh. 151)*

Gözəl əxlaq isə, insan üçün ən asan və ən gözəl olanıdır. İman yolunu seçən insanlar üçün, dünya həyatlarından axirətə kimi kəsilməz bir zövq, sevinc və rahatlıq vardır. Hər hansı bir əskiklikləri olsa da, bunun keçici olduğunu, dünyada əskik olan hər şeyin axirətdə sonsuza qədər özlərinə vəd edilmiş olduğunu bilərək, heç bitməyən şövqünü yaşayarlar. Sonsuz nemətə qovuşa bilmək üçün, edə biləcəkləri şey çox asandır. Qurana və vicdanlarının əmr etdiklərinə uyarlarsa, Allahın izni ilə özlərini sonsuz gözəlliklərin və kəsilməz nemətlərin məkanı olan cənnətə çatdıracaq.

Şosedə gedən avtomobilləri düşünün. Hər birinin içində fərqli mədəniyyətlərdən gələn, fərqli işlərdə çalışan, xarakterləri ayrı, aldıqları təhsilləri, tipləri, qısa olaraq hər şeyləri bir-birindən fərqli olan insanlar vardır.

Bu avtomobillərdən ikisinin yol üzərində bir yol qəzası ilə qarşılaşdıqlarını fərz edək. Qəza edən avtomobilin içində yaralı olduğu açıqca görülən bir adam huşsuz bir haldadır. Bu vəziyyətdə avtomobillərdən biri yalnız yoluna baxıb davam edərkən, digəri avtomobili dərhal dayandırıb yaralı olan adama kömək edib, onu ən yaxın xəstəxanaya çatdırmağa və əlindən gəldiyi qədər kömək etməyə çalışar.

Bu iki adam arasındakı ən əhəmiyyətli fərq, birinin vicdanının səsinə qulaq asması, digərinin isə, vicdanını dinləməməyidir. Aralarındakı mədəniyyət, təhsil, iş, irq, soy və s. fərqinin isə əslində heç bir əhəmiyyəti yoxdur. Hər insan, heç bir istisnası olmadan, həyatı boyunca doğruları söyləyən bu səsə yəni vicdana malikdir. Səhv bir hərəkət edərkən, günah işləyərkən və düşdüyü hər səhvdə vicdanı ona mütləq doğru olanı söyləyər. İnsanın vicdanının səsini yoxlaması isə son dərəcə asandır. Çünki, bir hadisə qarşısında insana doğru olanı söyləyən vicdan, daim içində ilk eşitdiyi səsdir. İnsan bu ilk səsə uyğun gəldiyi təqdirdə rahat və hüzurlu bir həyat yaşayar. Əks halda isə, bu səsə qulaqlarını tıxayıb nəfsinə uyğun bəhanələr axtarmağa, özünə bəraət qazandırmağa çalışarsa, bu vəziyyətdə də içindən çıxa bilməyəcəyi çətinliklərlə, şiddətli bir vicdan əzabı ilə birlikdə yaşamaq məcburiyyətində qalar.

Bu səbəblə vicdanın varlığı, Allahın insanlara verdiyi çox böyük bir asanlıq və nemətdir. Bu nemətin qiymətini bilən və vicdanını istifadə edən insan hər vəziyyətdə doğrunu səhvdən ayıran, Allahın razı olacağı dünyada və axirətdə qurtuluşunu təmin edən bir anlayışa da sahib olar. Allah insanın qurtuluşunun yalnız vicdanını dinlədiyində olacağını belə bildirir:

**And olsun nəfsə və onu yaradana; Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! (Şəms surəsi, 7-9)**

Ayədə bildirilən "**Nəfsini günahdan təmizləyən mütləq nicat tapacaqdır**" ifadəsi vicdanına uyan adamın hüzur tapdığını açıqca ortaya qoyur.

Vicdanının əmrlərinə uymayan insanların vəziyyəti isə, ayələrin davamında belə xəbər verilir.

**Onu (nəfsi) günaha batıran isə ziyana uğramışdır. (Şəms surəsi, 10)**

Allahın bəyəndiyi əxlaqı yaşamayan bir insanın vicdanı, daim yaxşını, doğrunu və gözəli əmr etməyə davam edər, bunun nəticəsində isə, adamın içində bir qarşıdurma olar. Bilə-bilə vicdansızlıq etmənin əzabı gecə-gündüz insanın yaxasını buraxmaz. Bu isə, insan üçün dünyada və axirətdə böyük bir çöküntüyə gətirər.

Hər insanın həyatında "şanssızlıq", "mənfilik", "tərslik" kimi görünən bir çox hadisə meydana gəlir. Bunlar bir insanın bütün həyatına təsir edəcək qədər şiddətli kimi görünən və ya gündəlik həyat içində qarşılaşılan kiçik hadisələr ola bilər. Quran əxlaqını yaşamayan insanlar, ən kiçiyindən ən böyüyünə qədər nəfslərinin xoşlanmadığı bu cür hadisələrlə qarşılaşdıqlarında çətinlik, narahatlıq, bədbəxtlik, gərginlik və qorxu hiss edərlər. Halbuki, bu onların çox əhəmiyyətli bir həqiqətdən xəbərsiz yaşadıqlarının nəticəsində öz-özlərinə yaşatdıqları bir zülmdür. Allahın bir ayəsində bildirdiyi kimi **"Allah insanlara zülm etməz,**

**insanlar öz-özlərinə zülm edərlər".** Allaha iman etməyən və ya iman etdiyi halda Allahın bildirdiyi həqiqətləri görməzlikdən gələrək yaşamağı seçən insanların dünyada aldıqları qarşılıq, həmişə narahatlıq, kədər və şübhə içində yaşamaq, bir çox qorxuya və zəifliyə sahib olmaqdır.

Həqiqəti bilənlər üçün dünya həyatında qorxu, narahatlıq və ya bədbəxtlik səbəbi ola biləcək heç bir şey yoxdur. Çünki, iman edənlər, hər hadisəni Allahın qədərdə (qismətdə) yaratdığını, hər şeyin Allah Qatındakı Lövhü Məhfuz adlı kitabda olduğunu və özlərinin də, digər bütün insanlar kimi qədərin (qismətinin) tamaşaçısı olduqlarını bilərlər. Allahın yaratdığı hadisələrin özləri üçün hər zaman gözəlliklə nəticələnəcəyini, Allahın saleh qullarının qədərini (qismətinin) ən hikmətli və özləri üçün ən xeyirli şəkildə yaratdığını heç vaxt unutmazlar.

İnsanların böyük bir hissəsi taleyi bilərlər, amma, tale ilə əlaqədar səhv anlayışlara sahibdirlər. Məsələn, yalnız insanın saç rəngi, boyunun uzunluğu, hansı ana-ataya sahib olacağı kimi müəyyən mövzuların insanın özünə aid olduğunu, digər mövzularda isə, əgər çox böyük səylə çalışar və əzm göstərsələr talelərini dəyişdirə biləcəklərini zənn edərlər. Halbuki, həqiqət budur: **Bir insanın hər anı, bütün həyatı, həyatı boyunca qarşılaşdığı və qarşılaşacağı hər hadisə, hər danışma, hər baxış, hər səs taleyindədir.** Məsələn, hal hazırda bu kitabın bu sətirlərini oxuyan adamın qədərində (taleyində) bu günün bu saatında bu sətirləri oxumaq onsuz da vardır. Allah bu anı, siz daha yaradılmadan milyonlarla il əvvəl də bilir. Bəlkə, bu kitabı oxuyana qədər insan bir çox hadisə yaşamışdır. Məsələn, tam oxumağa başlayacaq ikən qapı döyülmüş və bir yoldaşı gəlmişdir. Beləcə kitabı oxuması üç saat sonraya təxirə salınmışdır. Əlinə kitabı götürüb tam həmin anda qapının zənginin çalınması, qapını açdığında yoldaşının gülən üzü, "salam" deməsi, kitabı oxumanı üç saat təxirə salınması hərfi-hərfinə, siz bunları yaşamadan əvvəl Allahın yaddaşında, sizin yoldaşınızın və bu kitabın qədərdə (qismətdə) təyin olunmuşdur. Allah bir ayəsində bu mövzunu belə bildirir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, (ümmətinlə birlikdə) nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın! (Yunus surəsi, 61)**

Allah zamandan və məkandan münəzzəhdir. Zamana və məkana tabe olan isə insandır. Bu səbəblə bizim üçün keçmiş, indi və gələcək olan Allahın Qatında bir andır. Məsələn, bir sonrakı ad günümüz bizim üçün gələcək olan bir andır. Həqiqətdə isə o an, Allah Qatında olub bitmişdir, Allah o anı bilir. Yəni bizim bir sonrakı ad günümüzü, nə geyinəcəyimizi, kimlərlə birlikdə olacağımızı, o gün nə edəcəyimizi Allah bu anda bilir. Eyni şəkildə iki il sonra, üç il sonra, on il, qırx il sonra nə edəcəyimizi də Allah bu anda ən incə təfərrüatına qədər əhatə etmişdir. Allah, tək bir insanın həyatının bütün günlərini, hətta bütün dəqiqələrini, saniyələrini tək bir an olaraq bildiyi kimi, kainat var olduğundan bəri yaşamış olan milyardlarla insanın və bundan sonra yaşayacaq olan bütün insanların həyatlarının hər saniyəsinə də, tək bir an olaraq hakimdir. Allah sonsuz uzun zamanı sonsuz qısa zaman içində yəni tək bir anda yaratmışdır.

İnsanın, Allahın bu sonsuz elminin şüurunda olması və qədərinin (taleyinin) bir tamaşaçısı olduğunu bilməsi isə, onun üçün böyük bir nemət və asanlıqdır. Haqqıyla iman edən, səmimiyyətlə Allaha təslim olan bir mömin, özü üçün hazırlanmış olan qədərini (taleyini) ibrət götürərək, həyəcanla, şükürlə və hər an təvəkkül edərək, kreslosuna oturub bir filmi izləyən adamın rahatlığı kimi, rahat və sevinc içində izləyər.

Allahı dost və vəkil edən və Allahın yaratdığı hər hadisədən, hər görünüş və hər danışmadan razı olan bir insan, qədərindən (taleyindən) də razıdır. Allah, insanları sınamaq üçün qədərlərində (taleyində) fərqli hadisələr və görünüşlər yarada bilər. Bunlar bəzən ürküdücü, bəzən çətinlik və sıxıntı kimi görünə bilər. Ancaq, bu hadisələrin hər biri Allah Qatında ən incə təfərrüatlarına qədər planlı və gizlidir. Məsələn, hz. Yusif heç bir günahı olmadığı halda illərlə zindanda qalmışdır. Bu onun qədərindədir. Lakin, hz. Yusif Allahın yaratdığı qədərə məmnuniyyət və sevinclə təslim olduğu üçün, həbs ona bir çətinlik və sıxıntı deyil, əksinə bir çox nemətin və gözəlliyin qapısını açan bir hadisə olaraq görünmüşdür. Məsələn, belə bir çətinlik anını asanlıqların və rahatlığın olduğu bir mühitlə müqayisə edən mömin, nemətlərin zövqünə daha dərin çatar. Hər gün bir gül bağçası görən bir insanın bu bağçadan alacağı zövq ilə, illərcə beton divardan başqa bir şey görməmiş bir insanın gül bağçasından alacağı zövq əlbəttə ki, çox fərqlidir. Çətinliyi, çirkinliyi bilən bir insan rahatlıqdan və gözəllikdən daha çox zövq alacaq və ya qədərində hz. Yusif kimi haqsızlığa, çətinliyə, həbs kimi bir mühitə səbir edən bir insan, bunun axirətdə özünə Allahdan bir məmnuniyyət və əcr olaraq dönəcəyini düşünərək, qədərinə sevinər. Nəticədə, qədərində olanı yaşadığını və özü daxil olmaq üzrə heç bir yaradılmış varlığın onun qədərinin (taleyinin) önünə keçə bilməyəcəyini, qədərindəki tək bir saniyəni belə dəyişdirə bilməyəcəyini bilər və qədərinə təslimiyyətin rahatlığını yaşayar.

Qədərə təslim olan bir mömin əlbəttə ki, hər mövqedə əlindən gələnin ən çoxunu edərək səy göstərər. Məsələn, xəstələnən bir insan əlbəttə ki, həkimə gedəcək, dərmanlarını alacaq və xəstəliyi ilə əlaqədar hər şeyə diqqət yetirəcək. Ancaq bunları edərkən, getdiyi həkimin, aldığı dərmanların və müalicəsinin nəticəsinin də Allahın yaratdığı qədərdə (taleyində) olduğunu bilərək davranar. Bu səbəblə, heç bir zaman bədbəxtliyə, təlaşa, çətinliyə və ya pessimizmə qapılmaz. Allahın onun üçün dilədiyinin ən xeyirlisi olduğunu bilmənin hüzur və etibarını yaşayar. İnsanın hər hadisədə bir xeyir olduğuna iman etməsi son dərəcə əhəmiyyətli bir mövzudur.

Möminlər şər kimi görünən hadisələrdə belə, onun özləri üçün böyük bir xeyir olduğuna iman edər və Allaha təvəkkül edərlər. Bu, yalnız möminlərə xas bir xüsusiyyətdir. Peyğəmbərimiz bir hədisində bu mövzunu belə ifadə etmişdir:

*"Mömin adamın vəziyyəti nə qədər çaşdırıcıdır. Çünki, hər işi onun üçün bir xeyirdir. Bu vəziyyət, yalnız , möminə xasdır, başqasına deyil. Ona, məmnun olacağı bir şey gəlsə şükür edər, bu isə xeyirdir, bir zərər gəlsə səbir edər bu da xeyirdir." (Muslim, Zuhd 64, 2999)*

Allah, bütün kainatın tək hakimi, sonsuz güc sahibidir. Bu həqiqəti bilən və haqqıyla görə bilən bir insan üçün, onsuz da, Allaha təslim olaraq təvəkkül etməkdən başqa bir yol olmadığını bilər. Çünki, bir insanın qarşılaşdığı hər hadisə, hər insan, hər danışma, hər səs, Allahın nəzarəti altındadır. Peyğəmbərimizin də ifadə etdiyi kimi, Allahdan gələn hər şey mömin üçün bir gözəllik və bir xeyirdir. Möminlərin bu həqiqətin şüurunda olaraq yaşadıqları təvəkkül anlayışını Allah bir ayəsində belə bildirir:

**Mən özümün və sizin Rəbbiniz olan Allaha təvəkkül etdim. (Yer üzündə) elə bir canlı yoxdur ki, onun ixtiyarı (Allahın) əlində olmasın. Həqiqətən, Rəbbim düz yoldadır! (Hud Surəsi, 56)**

Allaha təvəkkül etməyərək, hər şeyi öz güclərinin və nəzarətlərinin altında zənn edənlərsə, daim qorxu, hüzn, narahatlıq və pessimizm içində olarlar. Bu, bir filmi izləyən bir insanın, sanki, filmin sonunu dəyişdirə biləcəkmiş kimi həyəcana və çaxnaşmaya qapılmasına bənzəyir. Belə bir qorxu necə də son dərəcə yersiz və gərəksizdirsə, qədərini izləyən bir insanın da qarşılaşdıqları qarşısında bənzər hisslərə qapılması gərəksiz və yersizdir. Məsələn, günahsız bir insana böhtan atanlar Allahın idarəsindəki varlıqlardır və Allah, insanı sınamaq üçün bu hadisələri yaradır. Bunlara səbir etdiyi təqdirdə, Allahın razılığını, cənnətini və rəhmətini qazanmağı ümid edən mömin üçün kədərlənib, sıxılacaq heç bir səbəb olmaz. Ayrıca, Allah, möminlərə hər vaxt köməyini göndərər və onlara işlərində asanlıq təmin edər. Bu, Allahın qəti bir vədidir. Allah bir ayəsində haqsızlığa uğrayanlar üçün belə buyurub:

**Hər kim özünə verilən cəza kimi cəza versə, sonra yenə də təcavüzə məruz qalsa, şübhəsiz ki, Allah ona kömək edər. Həqiqətən, Allah əfv edəndir, bağışlayandır! (Həcc surəsi, 60)**

O halda Allahın gücünü, köməyini və dostluğunu bilən möminlər üçün, təvəkkül və təslimiyyət tək yoldur, yolların ən gözəli və ən asanıdır. Əks halda, insan qaldıra bilməyəcəyi ağır bir yükün altına girər. Bədiüzzaman Səid Nursi bir sözündə insanın təvəkkül etmədiyi təqdirdə, öz-özünü necə bir çətinlik içinə salacağını belə ifadə edir:

*"İnsan zəifdir, bəlaları çox, kasıbdır, ehtiyacı daha çox, həyat yükü çox ağırdır. Əgər Qədri Zülcəlala dözüb təvəkkül etməzsə və etimad edib təslim olmazsa, vicdanı daim əzab içində qalar. Səmərəsiz məşəqqətlər, əzablar, təəssüflər onu boğar. Ya sərxoş, ya da, canavar edər." (Sözlər, s. 29)*

Ayrıca, bunu ifadə etmək lazımdır ki, burada izah edilənlər insanların özlərini və ya bir-birlərini təsəlli etmələri, çətinliklər qarşısında düşünərək özlərini təlqin etmələri üçün verilən məlumatlar deyil. Bunlar Allahın yaradışının və dünya həyatının həqiqi üzüdür. Əksinə, inanan və ya əksinə görə davranan özünü aldatmış və yanıltmış olar. Bu səbəbdən cahillik,

insanı ən varlı və ən rahat günlərində belə təvəkkülsüzlüyün çətinlik və gərginliyini yaşayarkən, həqiqətlərə iman edən bir mömin, hansı vəziyyətdə olursa olsun, dinin insanlara gətirdiyi asanlığı, sevinci və rahatlığı yaşayar.

Allah Quranda möminlər üçün belə bildirir:

**Xəbəriniz olsun; Allahın vəliləri, onlar üçün qorxu yoxdur, qəmli də olmayacaqlar. Onlar iman edənlər və (Allahdan) çəkinənlərdir. Müjdə, dünya həyatında və axirət də onlarındır. Allahın sözləri üçün dəyişiklik yoxdur. Beləcə böyük "qurtuluş və xoşbəxtlik" budur. (Yunis surəsi, 62-64)**

Diqqət yetirsəniz insanların böyük bir hissəsi həyatları boyunca həmişə bəzilərinin məmnuniyyətini, bəyənməsini və sevgisini qazanmağa çalışarlar. Yoldaşlarının, müdirlərinin, iş yoldaşlarının, internet dostlarının, qohumlarının, uşaqlarının... Belə bir anlayışda olan insanın həyat şəklindən geyiminə, danışma üslubundan dinlədiyi musiqiyə qədər hər şeyində, bəyənməsi hədəflənən biri vardır. Bu, bir çox istiqamətdən çox çətin, darıxdırıcı, yorucu və bezdirici bir həyatdır. Hər şeydən əvvəl, başqa insanların məmnuniyyətini axtaran bir insan, vicdanını çox vaxt təzyiq altına almaq vəziyyətində qalacaq. Məsələn, yeni tanış olduğu bir yoldaş, qrupundan kənarlaşmamaq, özünü qəbul etdirə bilmək üçün, bu insanlarda gördüyü səhv rəftarları söyləməyə, onları xəbərdar etməyə çəkinər. Yalnız, qalmaq və ətrafındakıları itirmə qorxusu ilə həyatı boyunca vicdanının əmr etdiklərindən qaçar. Bu, əvvəlcə onda vicdanı çətinlik meydana gətirərkən bir müddət sonra tamamilə vicdanı korlaşar və artıq doğru ilə səhvi, yaxşı ilə pisi, gözəl ilə çirkini ayırd edə bilməyəcək vəziyyətə gələr.

Eyni zamanda, bir çox insanı məmnun etmək üçün çalışan bir adamı gözləyən digər bir çətinlik isə, birini məmnun edərkən digərini hirsləndirmə ehtimalıdır. Bir insan yoldaşlarını məmnun edərkən ailəsini, ailəsini məmnun edərkən yoldaşlarını hirsləndirib itirə bilər. Ya da ki, müdirinin gözünə girmək üçün əlindən gələni edən bir insan, iş yoldaşlarının narazılığını qazana bilər. Bütün bunların nəticəsində isə, belə bir insanın həyatında hər vəziyyətdə narahatlıq, sıxıntı və narazılıq olacağı açıqdır.

Halbuki, səmimi bir müsəlman, yalnız Allahın məmnuniyyətini axtarar. Onun üçün ətrafındakı insanların nə deyəcəyi deyil, Allahın əmr etdikləri əhəmiyyətlidir. Allahın razılığını axtarmaq və ona görə hərəkət etmək isə, hər vaxt düzgün olan yoldur. Allah bir ayəsində, yalnız Allahın razılığını axtaranla, bir-biriylə çəkişən bir neçə başçısı (ağası) olan bir adamın vəziyyəti arasındakı fərqi belə bildirir:

**Allah bir məsəl çəkir: "Bir adamın bir-biri ilə çəkişən bir neçə şərikli ağası var. Başqa bir adamın da yalnız bir ağası var (təkcə ona xidmət edir). Onların hər ikisi vəziyyətcə eyni ola bilərmi?! Həmd ancaq Allaha məxsusdur, lakin, onların əksəriyyəti (bu həqiqəti) bilməz!" (Zumər surəsi, 29)**

Ayədə ifadə edildiyi kimi, insanın yaşayışına uyğun olan yalnız Allahın məmnuniyyəti üzərinə qurulmuş bir həyatdır. Səid Nursi də Allahın razılığını qazanmaq üçün cəhd göstərmənin hər zaman çox asan bir həyat gətirəcəyini belə açıqlamışdır:

*"Əməlinizdə İlahi razılıq olmalıdır. Əgər, O razı olsa, bütün dünya küssə əhəmiyyəti yox. Əgər, O qəbul etsə, bütün xalq rədd etsə təsiri yox. O razı olduqdan və qəbul etdikdən sonra, istəsə və hikməti tələb etsə, sizlər istəmək tələbində olmadığınız halda, xalqlara qəbul etdirər. Onları da razı edər." (Lemalar, s. 154)*

Bədiüzzamanın bu təfəkkürü son dərəcə əhəmiyyətlidir, həqiqi ixlas və səmimiyyətin də açarıdır. İnsan ancaq Rəbbimizin razılığını axtararaq həqiqi səmimi dindar ola bilər. Əgər etdiyi işlərdə insanların və ya başqa varlıqların razılığına yönəlirsə, o zaman, şübhəsiz, bu işin içinə riya qarışmış olar. Riyakar bir quruluş isə, insanı həm dünyada, həm də axirətdə zərərə salar. Əvvəlcə, insanların razılığını axtaranlar, gözlədikləri qarşılığı heç bir zaman görə bilməzlər. Bir insanın gözünə girmək, ona sanki "gözünə girmək" üçün çalışıb dayanarlar, amma, qarşılarındakı insan onların bu səylərini təqdir edə bilməz. Onsuz da etsə belə özü də aciz və yazıq bir insandır. Hər şeyin tək hakimi və sahibi olan Allah, Onun (Allahın) razılığını qazanmaq üçün çalışanları isə, sonsuz cənnəti ilə müjdələyər ki, cənnət, insanın nəfsinin arzu etdiyi hər şeyin hazır olduğu bir məkandır. Allah, yalnız, Onun razılığına, lütfünə uyanların qurtuluşa çatacağını belə bildirmişdir:

**Allah, öz lütfünə, razılığına uyanları qurtuluş yollarına yönəldər və onları Öz izniylə qaranlıqlardan nura çıxarar. Onları dümdüz yola yönəldib-çatdırar. (Maidə surəsi, 16)**

Yalnız Allahın razılığına uymaq hər insana, dünyada və axirətdə ən asan, ən gözəl və ən sevinc dolu həyatı gətirəcək.

Cahil cəmiyyətlərdə insanlar ümumiyyətlə, öz istək və mənfəətlərini ön planda tutar, hər zaman "Əvvəl mənim rahatlığım, zövqüm, hüzurum gəlir" düşüncəsiylə hərəkət edərlər. Fədakarlıq isə, bu insanların nəfsinə çox çətin gəlir. Eqoist rəftarlar yaxşı olaraq görülərkən, fədakarlıq ümumiyyətlə saflıq olaraq düşünülər. Halbuki, Allaha iman edən və Allahın məmnuniyyətini qazanmaq üçün fədakarlıq edən biri üçün fədakarlıq, həm böyük bir qazancdır, həm də son dərəcə asan bir ibadətdir.

Möminlərin fədakarlıq anlayışlarını Allah belə xəbər verir:

**Onlar öz nəfsləri istədikləri halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz Rəbbimizdən, çox sərt, çətin gündən qorxuruq!"**

**Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir. (İnsan surəsi, 8-11)**

Etdiyi fədakarlığın qarşılığında, ayələrdə bildirildiyi kimi, Allahın razılığını və "parıltılı bir nur və sevinc" duyacağı axirət nemətlərini qazanacağını bilən bir mömin üçün, fəda etdiklərinin heç bir əhəmiyyəti qalmaz. Keçici, qısa və əskikliklərlə dolu bir həyatda insanın ən sevdiyi mal varlığının belə, Allahın məmnuniyyətinin və bunun qarşılığında verəcəyi cənnət həyatının yanında heç bir dəyəri və gözəlliyi yoxdur. Buna iman edən möminlər, etdikləri fədakarlıq nə qədər böyük olursa olsun, nə bir təqdir gözləyərlər, nə də digər insanları minnət altında buraxarlar.

Allah, Öz razılığı üçün fədakarlıq edənlərə dünyada da bolluq və bərəkət bəxş edər, Allah yolunda verdiyindən də çoxunu o adama bağışlayar. Allah bu vədini ayələrində belə bildirir:

**Allah yolunda yaxşı borc verən kimdir ki, (Allah da) onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz Onun hüzuruna qaytarılacaqsınız. (Bəqərə surəsi, 245)**

**Mallarını Allah yolunda infaq edənlərin nümunəsi yeddi sünbül bitirən, hər bir sünbülü yüz dənə olan bir tək toxumun nümunəsi kimidir. Allah, dilədiyinə qat-qat artırar. Allah (lütfkarlığı) bol olandır, biləndir. Mallarını Allah yolunda infaq edənlər, sonra infaq etdikləri şeyin arxasından minnət qoymayan və əziyyət verməyənlərin əcrləri Rəbləri Qatındadır, onlara qorxu yoxdur və onlar qəmli olmayacaqlar. (Bəqərə surəsi, 261-262)**

Allaha və axirətə inanmayanlar üçün, fədakarlığın hər cürü böyük bir itki, özlərindən və mənfəətlərindən əhəmiyyətli bir azalmadır. İnancsız olduqları üçün, əslində özlərinə böyük qazanc olacaq gözəllikləri çirkin və itki olaraq görərlər. Eqoist insanlar, malını və pulunu əlində möhkəm tutmağa çalışanlar daim çətinlik və gərginlik yaşayarlar. Evlərində oturarkən belə, davamlı bir narahatlıq içindədirlər. Əşyalarının köhnəlməsi, yeməklərinin tükənməsi, dostlarının ziyarəti bu insanlar üçün həmişə bir əziyyət və zəhmət mövzusudur. Pis əxlaqları ilə öz-özlərinə zülm edər, gözəl əxlaqın gətirəcəyi hüzur və bərəkətdən məhrum qalarlar.

**Qullarından tövbəni qəbul edən, pislikləri bağışlayan və işlədiklərinizi bilən Odur. (Şura surəsi, 25)** ayəsində də bildirildiyi kimi, Allah bağışlayandır. Möminlər də, Allahın bəyəndiyi əxlaqa uyğun gələn kəslər olaraq, birindən pislik gördüklərində bağışlamağı, pisliyi yaxşılıqla uzaqlaşdırmağı seçərlər. Şübhəsiz, bir pislik qarşısında səbir edərək, ürəyinə salmayaraq, pislik edən kimsəni bağışlayaraq intiqam ehtirasına qapılmamaq, qəzəbini udmaq, təqva sahibi insanlara xas bir xüsusiyyətdir. Bu rəftarın qarşılığı Allahın məmnuniyyəti və sevgisidir. Allah bir ayəsində belə bildirir:

**O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər. (Ali İmran surəsi, 134)**

Pisliklərə qarşı yaxşılıqla cavab verərək bağışlayan adam, eyni zamanda özü və ətrafı üçün də, barış və hüzur dolu bir mühit hazırlamış olar. Bu əlbəttə ki, daimi qarşılıqlı intiqamların alındığı, kin, nifrət, düşmənçilik duyğularının hakim olduğu çətin bir mühitlə müqayisə edilməyəcək qədər asan, dinc və rahat bir mühitdir. İnsan, ilk öncə qapıldığı hirs və kin duyğularından xilas olmaq üçün bəlkə, qısa bir müddət nəfsinin qarşısını almaq, səbir və səy göstərmək vəziyyətində qalacaq, amma qarşılığında dostluq, sevgi, hörmət və barış dolu bir ruha və mühitə sahib olacaq. Allah ayələrində möminlərə belə bildirir:

**Yaxşılıqla pislik eyni ola bilməz! Sən (pisliyi) yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! (Fussilət surəsi, 34-35)**

Allah gözəl əxlaqın qarşılığında insanlara gözəl və asan bir həyat təqdim edər. Bağışlayıcı olmayan bir insanın ətrafında həmişə düşmənləri, ona kin və nifrət edən insanlar olar, bağışlayan insanın dünyada tapdığı qarşılığı dinc və barış dolu bir həyat və səmimi dostlardır.

Qürur və böyüklənmə (lovğalanma) bir insana ən çox zülm və çətinlik yaşadan pis əxlaq xüsusiyyətlərindəndir. Təvazökarlıq isə, tam əksinə, insana hüzur və rahatlıq gətirər. Qürurlu bir insan, hər şeydən əvvəl bütün xüsusiyyətlərini özünə aid zənn edər. Məsələn, zəkasının Allahın, ona verdiyi bir nemət olduğunu düşünüb şükür etmək əvəzinə zəkasıyla öyünər. Bu xüsusiyyətini gözündə böyüdərək ətrafındakıları özündən kiçik görər və alçaldar. Bu xarakterinin bir nəticəsi olaraq, ətrafındakı insanlar tərəfindən sevilməz. Bəlkə, qürurlu rəftarlarından ötrü bəzi kəslər yanında əzilib, hörmət göstərə bilərlər. Ancaq, qürurlu insana göstərilən hörmət, səmimi, həqiqətən o adama hörmət duyulduğu üçün göstərilən bir hörmət deyil, əksinə onun qürurunun, əzəmətinin şərindən xilas ola bilmək üçün, tətbiq olunan bir davranış şəklidir. Bu səbəbdən qürurlu insanların həqiqi, səmimi bir sevgi ilə özlərinə bağlı dostları olmaz. Ətraflarında həmişə özlərinə saxta bir maraq və hörmət göstərən insanlar olar.

Qürurlu insanın öz-özünə etdiyi ən böyük zülmlərdən biri də, ətrafına qarşı həmişə qüsursuz və əskiksiz görünməyə çalışmasıdır. Məsələn, yuxarıda verdiyimiz nümunədə olduğu kimi, zəkası ilə qürurlanan bir insan daim ən ağıllı olma iddiasındadır. Əsla səhv etməyi qəbul edə bilməz. Səhv etdiyində bunun insanlar tərəfindən anlaşılmamağı üçün əlindən gələni edər, hətta, yalan danışaraq çox səviyyəsiz vəziyyətlərə düşər. Halbuki, insan son dərəcə aciz, nöqsanlara sahib və bu dünya həyatında həmişə sınanan bir varlıqdır. Bu səbəbdən həyatı boyunca bir çox nöqsanı və səhvi olması son dərəcə təbiidir. Bunları digər insanların gözündən yayındırmağa çalışmaq isə, son dərəcə mənasız və gərəksizdir. Allahın hər şeyi görən və bilən olması, insanın aciz və nöqsanlarla dolu bir varlıq olduğunu qavraması və insanların gözündə nə olduğunun deyil, əsl Allah Qatındakı yerinin əhəmiyyətli olduğunu bilməsi, insanın üzərindəki bu zülmü qaldıraraq, yaşadığı həyatı asan və dinc hala gətirər.

İnsanların nəfslərində böyük çətinliyi yaşadan hisslərdən biri isə, özünü bəzi xüsusiyyətlərindən ötrü digərlərinə görə daha qiymətli görməsidir. Bu, əslində şeytanın da bir xüsusiyyətidir. Allah, hz. Adəmi yaratdığında şeytana və bütün mələklərə hz. Adəmin qarşısında səcdə etmələrini əmr etmişdir. Mələklər, Allahın gözəl əxlaqla yaratdığı varlıqlar olaraq dərhal səcdə etmişlər. Şeytan isə səcdə etməmiş və bəhanə olaraq bunları söyləmişdir:

**Dedi ki: "Mən ondan daha xeyirliyəm, Sən məni atəşdən yaratdın, onu isə palçıqdan yaratdın." (Sad surəsi, 76)**

Ayədə də bildirildiyi kimi, şeytan özünü digər yaradılmışlara görə üstün gördüyü üçün, Allahın əmrindən çıxa biləcək qədər azğınlaşmışdır.

Quranda özlərini üstün zənn etdikləri üçün azanlardan da danışılır. Məsələn**, yəhudi və xristianlar, "Biz Allahın uşaqlarıyıq və sevdikləriyik..." (Maidə surəsi, 18)** deyərək azıblar. Ancaq, onlar da daxil olmaq üzrə bütün insanlar, Allahın yaratdığı aciz varlıqlardır. Hər insan Allaha möhtacdır və Allahın özü üçün yaratdığı qədəri (taleyi) izləyir. Heç bir insan öz-özünə bəzi xüsusiyyətlər qazanıb sonra bunlarla üstünlük qazana bilməz. İnsanların üstünlüyü ancaq Allaha yaxınlıqda, təqvada göstərdikləri səy ilə ölçülə bilər.

Allahın özünü imtiyazlı və üstün zənn edənlərə Quranda verdiyi cavab belədir:

**"Bəs onda Allah nə üçün günahlarınıza görə sizə əzab verir?" Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. (Allah) istədiyini bağışlayar, istədiyinə əzab verər. Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də Onun hüzurunadır! (Maidə surəsi, 18)**

Qüsursuzluq və səhv etməmə iddiası, insan üçün çox ağır bir yükdür. İnsanlar arasında da imtiyazlı olmağa çalışarlar, buna görə, hər anlarını nəzarət altında tutarlar, həmişə iddialı bir rəftar içində olmağa səy göstərərlər. Məsələn, bir yığıncağa qatıldıqlarında ən təsirli danışanın, ən gözəl geyinənin, ən ağıllı həll yolları tapanın, ən çox diqqəti üzərində çəkənin özlərinin olmasını istəyərlər. Hər hansı bir qrup içindəykən belə, oturmaq üçün seçdikləri yerə qədər bir imtiyaz, fərqlilik, üstünlük havası meydana gətirməyə çalışar, əsla kütlənin və ya o otaqdakı insanlara qaynayıb-qarışmağı qəbul etməzlər. Həmişə "tikan üzərində" kimidirlər. Heç bir hərəkətləri təbii və səmimi olmaz. Etdikləri hər şey, məqsədlərinə çata bilmək üçün hesablı və planlı olar. Bunun bir insan üçün nə qədər böyük bir əzab olacağı və o adama nə qədər böyük bir yük yükləyəcəyi isə ortadadır.

Ayrıca, bilinməlidir ki, belə insanlar, qürurlanaraq hədəf elədikləri heç bir şeyə çata bilməzlər. Qürurlandıqca, həm ətraflarından nifrət və əsəbilik qazanarlar, həm də,

əllərindəkilər alındığında çox böyük bir çöküntü yaşayaraq həyata küsərlər. Allah bir ayəsində, qürurlananların bir nəticəyə çata bilmədiklərini belə bildirir:

**(Rəbbindən) özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəyində ancaq bir təkəbbür (böyüklük iddiası) vardır. Onlar heç vaxt Ona (böyüklüyə) çatmayacaqlar. Sən Allaha pənah apar. Şübhəsiz O, haqqıyla eşidən, haqqıyla görəndir. (Mömin surəsi, 56)**

Qürurlu insanlar, dünya həyatında heç bir əməllərinə çata bilmədikləri kimi, ən əhəmiyyətlisi, Allahın sevgisini də itirərlər. Allah bir ayəsində bunu belə bildirir:

**"İnsanlara yanını çevirib (böyüklənmə) və lovğalanmış olaraq yer üzündə gəzmə. Çünki Allah, böyüklük göstərib lovğalananı sevməz." (Loğman surəsi, 18)**

Təvazökar insanlar isə, qürurlu insanların yaşadıqları çətinlik və təzyiqləri heç bir zaman yaşamazlar. Əlbəttə ki, hər insan hər şeyin ən gözəlinə sahib olmağı, hər şeyin ən yaxşısını etməyi istəyər. Ancaq, bunları dünyəvi ehtiraslarını təmin etmək, insanların gözlərində böyümək və bundan ötrü hörmət görmək üçün edənlər böyük bir səhv içindədirlər. Təvazökar bir insan isə, bunların hamısını Allahı razı etmək və savab qazanmaq üçün istəyər. Bir şey bacardığında və ya gözəl bir xüsusiyyətə sahib olduğunda, bunların heç birinin özündən olmadığını, hər birinin Allahın ona lütf etdiyi nemətlər olduğunu bilər. Bunları özünə verən, qədərində (taleyində) özünə müvəffəqiyyət, gözəllik və nemət yaradan Allaha şükür edər. Buna görə bunlardan hər hansı birini itirdiyində də üzülməz. Bunun da özü üçün bir sınaq olduğunu bilər və təvəkkül edər. Nə müvəffəqiyyətə, nə də müvəffəqiyyətsizliyə, nə gözəlliyə, nə də çirkinliyə sahiblənməz. Hamısının dünya həyatında onu sınamaq üçün yaradılan hadisə və səhnələr olduğunu bilərək, bu inancının ona verdiyi hüzur və rahatlığı yaşayar.

Bədiüzzaman da qürurlu və təvazökar insanların həyatları arasındakı fərqi qısaca belə yekunlaşdırır:

*"Özünü bəyənən bəlasını tapar, zəhmətə düşər. Özünü bəyənməyən səfasını tapar, rəhmətə gedər." (Məktubat, s. 301)*

Cahil insanlar sıxıntıya düşdükdə dərhal yalana yönələrlər. Bunu özlərini qurtarmaq üçün asan bir üsul olaraq görərlər. Halbuki, dürüst olmamaq və yalançı olmaq bir insanın sahib olduğu ən əzab verici istiqamətlərdən biridir. Hər şeydən əvvəl, yalan danışan bir insan hər an yalanının ortaya çıxmasının narahatlığını yaşayıb və bundan ötrü alçalacaq deyə qorxar. Bundan başqa yalançı olmanın gətirdiyi vicdan çətinliyi insanlarda narahat və gərgin bir hala səbəb olar. Hər kəsin bir-birinə yalan danışdığı bir mühit isə, son dərəcə səmimiyyətsiz və riyakardır. Hər kəs bir-birinin hər söylədiyindən şübhələnər. Ən sadə

mövzularda belə bir-birlərinə güvənə bilməzlər. Misal olaraq, yeni aldıqları paltarın yaraşıb yaraşmadığını soruşduqlarında riyakar bir cavab alacaqlarından əmindirlər. Yalanlar və riya üzərinə qurulmuş bir dostluğun isə səmimi bir dostluq ola bilməyəcəyi məlumdur.

Halbuki, dürüstlük, Allahdan qorxan bir insan üçün çox əhəmiyyətlidir. Allah bir ayəsində iman edənlərə dürüstlüyü belə əmr edir:

**Ey iman edənlər, Allahdan çəkinin və sözü doğru söyləyin. (Əhzab surəsi, 70)**

Dürüstlük və səmimiyyət isə, möminlərə çox gözəl, etibarlı, hüzur dolu bir həyat gətirər. Məsələn, səhv edən bir mömin bunu heç bir zaman digərlərindən gizləməz. Çünki, Allahın, özünü hər an izlədiyini, gördüyünü və eşitdiyini bilər və Allaha yönələrək tövbə edər. Möminlərin bilməsi lazımdırsa, bunu onlara da ən doğru və dürüst şəkildə izah edər. Möminlərin belə bir dürüstlük qarşısında səmimiyyətini istismar etməyəcəklərini bilər. Əksinə edilən səhv nə olursa olsun, möminlər, o adamın göstərdiyi səmimi və təvazökar rəftardan ötrü son dərəcə məmnun olar və o adama güvənərlər. Peyğəmbərimiz (s.ə.v.) də bir hədisində yalan danışmaq ilə əlaqədar olaraq belə buyurmuşdur:

*Heç şübhə yoxdur ki, düzgünlük yaxşılığa aparar. Yaxşılıq da cənnətə aparar. Adam doğru söyləyə-söyləyə Allah Qatında sıddıq (doğru sözlü) deyə yazılar. Yalançılıq pisə aparar. Pis olansa cəhənnəmə aparar. Adam yalan söyləyə-söyləyə Allah Qatında kezzab (çox yalançı) deyə yazılar. (Buxari, Ədəb, 69; Müslim, Birr, 103-104)*

Səmimi, sirri olmayan, əsrarəngiz bir hava təqdim etməyən açıq bir insan çox etibarlıdır və o adamın yanında hər kəs rahatlıq tapar. Belə insanların bir yerdə olduqları bir cəmiyyət isə, çox böyük bir nemət və gözəllikdir. İnsanlar bəlkə dürüst davranaraq özlərini hörmətdən salmaqdan, çətinlik yaşamaqdan çəkinərlər ancaq, Allah dürüst və səmimi insanlara çox gözəl, etibarlı və dinc bir mühit verər. Onların axirətdə alacaqları qarşılıq isə, daha gözəl və müjdə doludur:

**Allah buyurdu: "Bu (qiyamət günü) elə bir gündür ki, düz danışanlara düzlükləri fayda verər. Onları (ağacları) altından çaylar axan cənnətlər gözləyir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlar da Allahdan razıdırlar. Bu, (möminlər üçün) böyük qurtuluşdur ." (Maidə surəsi, 119)**

Bu hissədə gözəl əxlaq xüsusiyyətlərindən bir neçə nümunə verilərək, əslində asan olanın və insana xoşbəxtlik gətirənin, Quran əxlaqının yaşanması olduğu izah edildi. Burada verilən nümunələri çoxaltmaq mümkündür. Çünki, hər pis xüsusiyyətindən xilas olaraq bir yaxşılıq daha qazanan adam üçün bir qat daha çox sevinc vəsiləsi meydana gələcək. Məsələn, qısqanc biri qısqanclıqla öz-özünü narahat edərkən, bütün gözəlliklərdən, gözəl insanlardan,

digər insanların müvəffəqiyyətlərindən zövq almağa başlayacaq. Məsələn, daha əvvəl qısqanclıq və əsəbi baxdığı yoldaşının gözəlliyi, bir anda Allahın yaradışını tərifədiyi, hər gördüyündə nemət olaraq gördüyü bir gözəlliyə və sevincə çevriləcək ya da ki, ən kiçik bir hadisədə belə səbirsiz olaraq özünə süni olaraq çətinliklər yaşadan bir insan, səbrin gözəlliyini və Allah Qatındakı dəyərini öyrənərək yaşadığında, çətin kimi görünən hadisələrdə belə səbir etmənin, təvəkkülün və təslimiyyətin böyük sevincini və rahatlığını yaşayar. Bu çətinliklərə səbir göstərdiyində qazanacağı mükafatı düşünərək sevinci qat-qat artar.

Nəticə olaraq, Allaha, Allahın yaratdığı qədərə (taleyə), cənnətin və cəhənnəmin varlığına qəti olaraq iman etmək, bir insana ən böyük sevinci, hüzuru, rahatlığı və asanlığı gətirən əhəmiyyətli bir sirdir. Bunlara çatmaq üçün başqa yollar axtaranlar böyük bir yanılma içindədirlər və iman etmədən bu nemətlərə heç vaxt çata bilməzlər.

# ŞEYTANIN ZƏİF HİYLƏSİ

Allah hər insanı bu dünya həyatında sınayar və hər insanın bu sınaq əsnasında göstərdiyi əxlaqa və imana görə, əsil həyatının cənnətdə və ya cəhənnəmdə olacağını təyin etmiş olar. Allahın qulları üçün yaratdığı bu sınaq isə, son dərəcə asan və rahatdır. Daha əvvəlki mövzularda da, toxunulduğu kimi, insanın öhdəsinə düşən Allahın Quranda bildirdiyi və insana dünya həyatında da xoşbəxtlik və hüzur gətirən həyatı yaşamaqdır. Allah bu imtahan içində imana qarşı mənfi bir güc olaraq şeytanı yaratmışdır. Ayələrdə bildirdiyi kimi, şeytan insanların düşüncələrinə vəsvəsə verərək, onlara imansızlığı təlqin edərək və ya bəzi insanların rəftarları və danışıqları vasitəsi ilə insanları dindən, Allahın əmrlərindən və gözəl əxlaqdan çəkindirmək üçün səy göstərir. Bunun üçün hər yolu sınayar, insanlara müxtəlif tələlər qurar. Şeytanın insanın bir düşməni olduğunu Allah bir ayəsində belə xəbər verir:

*Ey iman edənlər, hamınız bütövlükdə sülhə (İslama) gəlin və şeytanın yolu ilə getməyin. Çünki o, sizə açıq-aşkar bir düşməndir. (Bəqərə surəsi, 208)*

Bununla yanaşı Allahın ayələrində də bildirdiyi kimi, şeytanın insanlar üçün hazırladığı hiylələr çox zəifdir və iman gözüylə baxan bir insan, dərhal şeytanın tələlərini görər və pozar. Allah Quranda şeytanın etdiyi hiylələrin çox zəif olduğunu və insanlar üzərində heç bir hökmünün olmadığını xəbər vermişdir.

Quranda, *"İş bitdikdə (cənnətliklər Cənnətə, cəhənnəmliklər də Cəhənnəmə daxil olduqda) Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: "Allah sizə doğru vəd vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) vəd vermişdim, amma, sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin, mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma çata bilərsiniz. Mən öncə (dünyada) sizin, məni (Allaha) şərik qoşmağınızı da inkar etmişdim. Həqiqətən, zalımları şiddətli bir əzab gözləyir!" (İbrahim surəsi, 22)* ayədə şeytanın heç bir məcburedici gücü olmadığı üçün, mömin güclü bir mövqedə olar. Bu da çox böyük bir rahatlıqdır.

İblisin müstəqil bir gücünün olmadığı başqa ayələrdə də belə xəbər verilir:

*İblisin onlar barəsindəki ehtimalı doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları onun toruna düşdülər. Halbuki, o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq, axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 20-21)*

Şeytanın insanlar üzərində heç bir məcburedici gücünün (hökmü) olmaması, insanlar üçün Allahın təyin etdiyi bir asanlıqdır. Şeytan, yalnız insana pisliyi, inkarı, pis əxlaq xüsusiyyətlərini pıçıldayar, onları inkara çağırar. Ancaq, bunları insanlara etdirmək üçün təzyiq tətbiq edə bilməz, qurduğu tələlər aydın və zəifdir. İnsan, şeytanın təsirindən xilas olmaq üçün, çox böyük bir səy və güc sərf etməsinə ehtiyac yoxdur. Çox az düşünən bir insan, həqiqətləri dərhal görər və şeytana uymaz. Məsələn, şeytan bir insana dünya həyatını çox cazibədar və bəzəkli göstərə bilər. Gənc bir insana dünya həyatını sanki heç bitməyəcəkmiş kimi hiss etdirib, onu dünyaya ehtirasla bağlamağa çalışar. Halbuki, ağlı başında və həqiqəti düşünən biri üçün şeytanın bu səyləri çox zəif və təsirsizdir. Hər insanın bir gün mütləq öləcəyini, dünya həyatında cazibədar görünən hər şeyin keçici, qısa ömürlü və cənnətdəki halıyla müqayisə edildiyində, son dərəcə əskik və kafi olmadığını bilən və düşünən bir insan, şeytanın tələsini pozmuş olar və ya şeytan bir insana qüruru və özünü bəyənməyi pıçıldayar. Ancaq acizliklərini, əskiklikləri̇ni, qüsurlarını düşünən və ya bir gün ölüb, torpağın altında çürüyəcək bir bədənə sahib olduğunu xatırlayan insan, şeytanın bu oyunundan da asanlıqla xilas olacaq.

Əlbəttə ki, bu asanlıq, səmimi olaraq şeytanın təsirində yaşamaq istəməyən, Allahın razılığını, rəhmətini və cənnətini məqsəd edən saleh insanlar üçündür. Əks halda bir insan Allahdan qorxub çəkinmədikdə və Allahın razılığını istəmədikcə şeytanın tələlərinə düşməsi çox asan olacaqdır. Rəbbimiz şeytanın yalnız **"ixlaslı"** qullarının üzərində bir təsirinin ola bilməyəcəyini ayələrində belə xəbər verir:

*(İblis) dedi: "Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm övladının) hamısını (haqq yoldan) azdıracağam; Yalnız Sənin sadiq bəndələrindən başqa!" (Sad surəsi, 82-83)*

Buna qarşılıq şeytanın çağırışlarına uyan və onu dost tutanların sonu isə ayədə belə açıqlanır:

*And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər). (Furqan surəsi, 29)*

# NƏTİCƏ

Yer üzündə yaşamaqda olan bütün insanlar kimi siz də irəliləyən hər saat, hər dəqiqə və hər saniyə axirət həyatınıza daha çox yaxınlaşırsınız. Bu, qaçışı olmayan bir həqiqətdir... Bir gün, bir şəkildə həyatınız sona çatacaq və Allah qatında dünyada etdiklərinizə görə hesabat verəcəksiniz.

İndiyə qədər dini çətin gördüyünüz üçün dindən uzaq dayanmış, Quran əxlaqını yaşamamış və bir çox səhv etmiş ola bilərsiniz. Amma bu andan sonra vacib olan səmimi olaraq Allaha tövbə edib, axirətiniz üçün ən xeyirlisini etməniz və asan olana tərəf getmənizdir. Bu qərara gəldiyinizdə bu ana qədər alışdığınızdan çox fərqli və "gözəl bir həyat"a qovuşacağınız isə Allahın icazəsiylə qəti bir həqiqətdir.

"Gözəl bir həyat" anlayışı insanlara çox vaxt yad gəlir. İnsanların böyük bir qismi heç bir çətinlik, kədər, qorxu, narahatlıq hiss etməyəcəkləri bir həyatı, qeyri-mümkün olan bir xəyal olaraq görərlər. Həqiqətən, belə bir həyat, dindən uzaq yaşayan insanlar üçün qovuşmaları mümkün olmayan bir xəyaldır.

Belə dinc və sevinc içində bir həyatı yalnız Allahın razılığını, cənnətini və rəhmətini özlərinə hədəf edən, Allahdan qorxub çəkinənlər yaşaya bilərlər. Bu Allahın inanan qullarına müjdələdiyi bir həqiqətdir:

**Kişi olsun, qadın olsun, bir mömin olaraq kim saleh əməl edərsə, heç şübhəsiz Biz onu gözəl bir həyatla yaşadarıq və onların qarşılığını, etdiklərinin ən gözəliylə şübhəsiz verərik. (Nəhl surəsi, 97)**

Kitab boyu əhatəli bir şəkildə izah edildiyi kimi, Allahın insanlar üçün bildirdiyi din, çox asan və zəhmətsizdir. Həmçinin, insanın həyatındakı bütün çətinlikləri, sıxıntıları və zəhmətləri aradan götürər. Dini yaşayan insan Allahın qoruması ilə, hər işində müvəffəqiyyətə və ən gözəlinə çatar və ayədə bildirildiyi kimi ən gözəl həyatı yaşayar.

O halda siz də gözəl olanı və eyni zamanda da ən asan həyatı seçin. Belə bir həyatı Quran əxlaqını yaşayaraq asanlıqla əldə edə bilərsiniz. Çünki Quran, bu kainatdakı hər şey kimi sizi də yaradan Allahın sözüdür. Bu ana qədər içində yaşadığınız cəmiyyətdən, ətrafınızdakı insanlardan, qəzetlərdən, televiziyadan aldığınız təlqinləri bir kənara buraxaraq yalnız Allahın sözü olan haqq dinə yönəlin və Quran əxlaqını yaşamağın asanlığını düşünün.

Unutmayın, əgər din əxlaqının rahatlıqla yaşana biləcəyini görməzlikdən gələrək, asan olanı tərk edəcək olsanız, axirətdə ümid etmədiyiniz sonsuz bir əzabla qarşılaşa bilərsiniz.

# TƏKAMÜLÜN YANLIŞLIĞI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar qalan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi bir nizam olduğunun elm tərəfindən isbat edilməsi ilə dəlilsiz hala gəlmişdir. Beləcə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, tərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və edilən saxtakarlıqlara dayanır.

Ancaq bu təbliğat həqiqəti gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yanılma olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə, 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu gerçək bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə, ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çox sayda tədqiqatçı alim darvinizmin etibarsızlığını görür, canlıların mənşəyini artıq "yaradılış həqiqəti ilə" açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi detalları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzunu daşıdığı böyük əhəmiyyət səbəbi ilə burada da yekunlaşdırmaqda fayda vardır.

**Darvini yıxan çətinliklər**

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı növlərinin Allahın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya dayanmırdı; özünün də qəbul etdiyi kimi yalnız bir "məntiq yürütmək" idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən aşılacağını, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi. Bunu kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir dayaqsız buraxmışdır.

Darvinizmin elm qarşısındakı uduzması üç təməl başlıqda araşdırıla bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2) Nəzəriyyənin qarşıya qoyduğu "təkamül mexanizmləri"nin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3) Qalıq qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksinə bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığını ana xətləri ilə araşdıracağıq.

## Keçilə bilinməyən ilk pillə:

### Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiklərini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür bir təkamül reallaşmışdırsa, niyə bunun izlərinin qalıq qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün, o "ilk hüceyrə"nin heç bir məqsəd, plan və tənzimləmə olmadan, təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, bilinən ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

### "Həyat həyatdan gəlir"

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa sahib olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri insanların inandığı "öz-özünə törəyən nəsil" adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəklərinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi məşhur bir düşüncə idi. Bunu isbat etmək üçün maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirdikləri gözlə görülməyən sürfələrdən çıxırdılar.

Darvinin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gələ bildikləri inancı elm dünyasında məşhur bir qəbul görürdü.

Halbuki Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloq Luis Pastor təkamülə əsas təşkil edən bu inancı qəti olaraq təkzib etdi. Pastor apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır (1).

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pastorun tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu

ortaya çıxardıqca həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının etibarsızlığı daha da açıq hala gəldi.

**20-ci əsrdəki nəticəsiz səylər**

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə edən ən qaranlıq nöqtəni meydana gətirir (2).

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib proteinlərin quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminoasid) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin etibarlı olmadığı və təcrübədə istifadə edilən atmosferin gerçək dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı (3).

Uzun sürən bir səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi (4).

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyunca aparılan bütün təkamülçü səylər davamlı müvəffəqiyyətsizliklə nəticələndi. "San Diego Scripps" institutundan məşhur geokimyaçı Jefrey Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başladı (5).

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların belə inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Hüceyrənin ən fundamental quruluş maddəsi olan proteinlərin təsadüfi olaraq sintez edilmə ehtimalı; 500 aminoasidlik orta hesabla bir protein üçün 10950/1-dir. Ancaq riyaziyyatda 1050/1-dən kiçik ehtimallar praktik olaraq "qeyri-mümkün" sayılır. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın əgər kağıza köçürülsə, 500 səhifədən ibarət olan 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir dilemma əlavə var: DNT yalnız bəzi xüsusiləşmiş proteinlərin (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq

DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz duruma salır. “San Diego California” universitetindən məşhur təkamülçü professor Lesley Orqel, “Scientific American” jurnalının oktyabr 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfi olaraq meydana gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır (6).

Şübhəsiz, əgər həyatın təbii faktorlarla ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın fövqəltəbii bir şəkildə "yaradıldığını" qəbul etmək lazımdır. Bu həqiqət əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə keçərsiz edir.

### Təkamülün xəyali mexanizmləri

Darvin nəzəriyyəsini keçərsiz duruma salan ikinci böyük nöqtə nəzəriyyənin "təkamül mexanizmləri" olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmilllləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə dayanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Bu səbəbdən təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqinə varırdı və “Növlərin mənşəyi” adlı kitabında "Faydalı dəyişikliklər meydana gəlmədiyi müddətcə təbii seleksiya heç bir şey edə bilməz" demək məcburiyyətində qalmışdı (7).

### Lamarkın təsiri

Bəs, bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə köçürürlər və nəsildən nəsilə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən nəsilə boyunları uzanmışdı.

Darvin də bənzəri nümunələr vermiş, məsələn, “Növlərin mənşəyi” adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi (8).

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti olaraq rədd etdi. Beləcə, təbii seleksiya "öz başına" və dolayısı ilə tamamilə təsirsiz bir mexanizm olaraq qalmış olurdu.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya "faydalı dəyişiklik səbəbi" olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürtmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi.

Bu gün də hələ dünyada təkamül adına keçərliliyini qoruyan model neodarvinizmdir. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara" yəni genetik pozğunluqlara söykənən bir müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: Mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı təsadüfi bir təsir ancaq zərər verər. Amerikalı genetik B. G. Ranganathan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamüllü bir inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş bir orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi bir dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar (9).

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görülən təsiri xərçəngdir.) Əlbəttə, korlayıcı bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "öz başına heç bir şey edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşanmış ola bilməz.

## Fosil (qalıq) qeydləri:

### Ara nümunələrin izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən var olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun bir zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir.

Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız "ara növlər" meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçiş müddətində olduqları üçün şikəst və qüsurlu canlılar

olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara "ara keçid nümunəsi" adını verirlər.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların saylı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır. Və bu əcaib canlıların fosillərinə, mütləq fosil qeydlərində rast gəlinməldir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər (10).

## Darvinin puç olan ümidləri

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda keçiş nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız bir şəkildə ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq (fosil alimi) Derek W. Ager bir təkamülçü olmasına baxmayaraq bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: Fosil qeydlərini detallı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük (11).

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçiş nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Əlavə də bu canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Douglas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl var olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar (12).

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi "ara nümunə"lərin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyali olan bu ssenaridə dörd təməl "kateqoriya" sayılır:

1- Australopithecus

2- Homo habilis

3- Homo erectus

4- Homo sapiens

Təkamülçülər insanların sözdə ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən "Australopithecus" adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solly Zuckerman və prof. Charles Oxnardın “Australopithecus” nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir (13).

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də "homo", yəni insan olaraq sinifləndirirlər. İddiaya görə “homo” ardıcıllığındakı canlılar “Australopithecus”lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüllü bir əlaqə olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr "“Homo sapiens”ə uzanan zəncir həqiqətdə itmişdir" deyərək bunu qəbul edir (14).

Təkamülçülər "Australopithecus > Homo habilis > Homo erectus > Homo sapiens" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki paleoantropoloqların son tapıntıları “Australopithecus”, “Homo habilis” və “Homo erectus”un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir (15).

Bundan başqa “Homo erectus” sinifləməsinə aid insanların bir hissəsi çox müasir zamanlara qədər yaşamış, “Homo sapiens” “Neandertalensis” və “Homo sapiens sapiens” (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar (16).

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduqları iddiasının keçərsizliyini açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stephen Jay Gould özünün də bir təkamülçü olmasına baxmayaraq darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-biri ilə paralel bir şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda bizim soy ağacımıza nə oldu? Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüllü bir inkişaf tərzi göstərmirlər (17). Qısa olaraq mediyada və ya dərs kitablarında yer alan xəyali bəzi "yarı meymun, yarı insan" canlıların şəkilləri ilə, yəni sırf təbliğat yolu ilə dəstəklənməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi təməli olmayan bir nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə “Australopithecus” fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solly Zuckerman bir təkamülçü olmasına baxmayaraq ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə çatmışdır.

Zuckerman bir də maraqlı bir "elm şkalası" tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zuckermanın bu cədvəlinə görə ən "elmi", (yəni konkret məlumatlara dayanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən "elmdən kənar" sayılan hissəsində isə Zuckermana görə

telepatiya, altıncı hiss kimi "duyğu sonrası qəbul etmə" anlayışları və bir də "insanın təkamülü" vardır! Zuckerman yelpiyin bu yerini belə açıqlayır:

Obyektiv həqiqətin sahəsindən çıxıb bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına) girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür (18).

Budur, insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə, hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək; həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir “təcrübə” hazırlayaq və təkamülçülərin əslində müdafiə etdikləri, amma yüksək səslə dilə gətirə bilmədikləri iddianı onlar adına “Darvin düsturu” adı ilə arşdıraq:

Təkamülçülər çox sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı 10-950 olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən nəsilə köçürərək növbəti milyardlarla, hətta trilyonlarca il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin var olması lazım olduğuna inanılırsa, hamısını istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr etsinlər, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd bir mənasız sözdür.

Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək üstdəki nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilməyəcəyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, "Necə görürük?" sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs halda düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beynin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi hiss olunur. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beyinin içi tamamilə qaranlıqdır, işıq beyinin olduğu yerə girə bilməz. Görüntü mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Üstəlik bu o qədər dəqiq və keyfiyyətli bir görüntüdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, bu anda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yeni bir televizor ekranına baxın, bir də bu anda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üç ölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üç ölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üç ölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üç ölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur. Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü meydana gəlməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi meydana gəlir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə, otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görüntünü meydana gətirən aləti meydana gətirdi desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görüntünü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də keçərlidir. Xarici qulaq, ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri beyindəki eşitmə mərkəzinə verir.

Gözdəki durum qulaq üçün də keçərlidir, yəni beyin, işıq kimi səsə də bağlıdır, səs keçirməz. Bu səbəbdən çölü nə qədər gurultulu olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, sıxlıq bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada iti bir səssizliyin hakim olduğu görüləcək. Dəqiq bir görüntü əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada çalışan minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görüntü və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbul edici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

*Beyinin içində görən və eşidən şüur kimə aiddir?*

Beyinin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyubsunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: Beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss hesab edən kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beyinə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insanın beyinin içindəki bir neçə kub santimetirlik qaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allahı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

*Materialist bir inanc*

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin

gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulmaqdadır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını “elmə hücum” kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?...

Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər. Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda öndə gələn bir təkamülçü Richard Lewontin “əvvəl materialist, sonra alim” olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, “a priori” (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan “a priori”yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik (19).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğruna yaşadılan bir doqma olduğunun açıq ifadələridir. Bu doqma maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarlılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər öz deyimləri ilə “ilahi bir izahın səhnəyə girməməsi” üçün bu qəbulu müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: Bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allahdır.

### *Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur*

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən isitifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Charlton Heston kimi sənətçilərin, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün “dünya tarixinin ən böyük və ən təsirli cadusu” ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Relsə, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə ibadət etməsindən, hz

İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağıla sığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş bir kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməsi isə sözlə izah edilə bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının "cadu"dan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz Musa firona haqq dini izah etdiyində firon hz Musaya öz "bilikli sehrbazları" ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa: ) "Siz atın" - dedi. Onlar (əllərindəkiləri və əsaları yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz "hiylə"ləri ilə (hz Musa və ona inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə "uydurduqlarını udmuş", yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülmüşdür. İndiki dövrdə də bir sehr təsiri ilə elm

adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və “sehr pozulduğunda” pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist bir fəlsəfəçi olan, ancaq daha sonra həqiqətləri görən Malcolm Muggeridge təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyəti belə açıqlayır:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq (20).

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar “təsadüflər”in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq təyin olunacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünürlər.

**“Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən”**

**(Bəqərə surəsi, 32)**

# QEYDLƏR

1. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2

2. Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953, s.196

3. "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Noyabr 1982, s. 1328-1330

4. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7

5. Jeffrey Bada, Earth, Fevral 1998, s. 40

6. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Oktyabr 1994, s. 78

7. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189

8. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184

9. B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988

10. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179

11. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133

12. Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197

13. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, sf. 389

14. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Dekabr 1992

15. Alan Walker, Science, c. 207, 1980, sf. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, sf. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272

16. Time, Noyabr 1996

17. S. J. Gould, Natural History, c. 85, 1976, s. 30

18. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19

19. Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Yanvar 1997, s. 28

20. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s.43